# Biznesin aparılma qaydaları

**Hazırkı biznesin aparılma Qaydaları (bundan sonra "Qaydalar") və onların tərkibində olan materiallarla birlikdə Müstəqil Tərəfdaş statusunun alınması haqqında Müqavilənin bir hissəsidir. Herbalife şirkəti barəsində Müstəqil Tərəfdaşların elektron poçt vasitəsilə məlumatlandırılacağı dəyişiklikləri vaxtaşırı olaraq Qaydalara əlavə edə bilər.**

## Mündəricat


**İşin başlanğıcı** .... 3
Müstəqil Tərəfdaşlar Fərdi Sahibkarlardır .... 3
Borc götürmək və ya vacib nailiyyətlər əldə etmək zərurətinin olmaması .... 3
**Herbalife məhsulunun satışı** .... 3
Qadağan edilmiş satış yerləri .... 3
Pərakəndə sifariş blankları  və satış haqqında sənədlər .... 3
Müştərilərə təzminatlar .... 3
Aqressiv satışlar .... 3
Məhsulun üçüncü şəxslər tərəfindən yayılması üçün satışı .... 3
Qablaşdırmanın, etiketin və materialların dəyişməsi .... 4
Məhsulun təsviri və istifadəsi ilə bağlı tövsiyələr .... 4
Eyniləşdirmə .... 4
**Reklam** .... 4
Bəyanatlar .... 4
Qiymətlərin reklamı .... 4
Herbalife-ın əqli mülkiyyəti .... 4
Reklamın qadağan olunması .... 5
**Satış və Marketinq Planının əsasları** .... 5
Bir şəxs üçün bir Müstəqil Tərəfdaş Müqaviləsi .... 5
Məhsulun düzgün şəkildə əldə edilməsi .... 5
Biznesin inkişafında iştirak edən şəxslərin hərəkətinə görə məsuliyyət .... 5
Qeyri-aktivlik dövrü .... 5
**Sponsorluq və Liderlik** .... 6
TAB Team komandasının iştirakçılarının xidmətlərə görə Əlavə Mükafatın alınması haqqında ərizə .... 6
Digər biznesə müdaxilə etməmə .... 6
Herbalife ilə assosiasiya .... 6
Digər biznes imkanlarının təşviq edilməsi .... 6
Biznesin inkişafı üçün alətlərin satışı .... 6
**Birbaşa satışlar** .... 6
Satış və Marketinq Planının manipulyasiyası .... 6
Müştəri xidməti .... 7
Lider dəstəyi və Təşkilatın təlimləndirilməsi .... 7
Hərrac saytlarında və kənar onlayn ticarət meydançalarında (birlikdə "Kənar saytlar" adlandırılırlar) satışların qadağan olunması .... 7
Müstəqil Tərəfdaşların vebsaytları və tətbiqləri .... 7
Kontekst reklam və axtarış sisteminin optimallaşdırılması .... 8
Qadağan olunmuş biznes təcrübələri .... 8
Potensial müştərilər və tövsiyə ilə gələn şəxslər .... 8
**Sağlam həyat tərzi Klubları və ofislər** .... 8
Biznesin idarə olunması üçün yerin icarəsi və ya satın alınması .... 8
Bir neçə Klubun idarə olunması .... 8

Klubun idarə olunması ilə bağlı ödənişli məsləhətlərin qadağan olunması ... 9
Məsul Klub Təşkilatçısı ... 9
Klub otaqlarından birgə istifadə ... 9
Məhsulun pərakəndə satışı ... 9
Herbalife məhsullarının hazırlanması ... 9
Çatdırılma ... 9
Mənfəət əldə edilməsi üçün Klubların satışının qadağan olunması ... 9
Qeyri-yaşayış sahəsində Klubun lövhəsi və adı ... 9
Qeyri-yaşayış sahəsində Klubun xarici tərtibatı ... 10
**Beynəlxalq biznes ... 10**
Biznes üçün açıq olmayan ölkələrdə və ərazilərdə fəaliyyət ... 10
Məhsul ixracının qadağan olunması ... 10
Çində bizneslə məşğul olmaq ... 10
Ölkələr, bölgələr və ayrı-ayrı şəxslər üçün qadağalar ... 10
**Ümumi Davranış Qaydaları ... 11**
Qüvvədə olan qanunvericiliyə və qaydalara əməl olunması ... 11
Herbalife Şirkətinə dürüst və aktual məlumatın təqdim edilməsi ... 11
Herbalife-ın nüfuzunun və imicinin dəstəklənməsi ... 11
Hüquqların tapdalanmasına, təqibə və qeyri-münasib davranışa olan münasibət ... 11
Herbalife-ın yoxlamalarına kömək göstərilməsi ... 11
Rəqabətə mane olmağın qadağan edilməsi ... 11
Oyun fəaliyyətlərinin təşviq edilməsi ... 11
**İnzibati Qaydalar ... 12**
Müqavilə İlə Təqdim Olunan Hüquqlar ... 12
Tərəfdaşlıq Fəaliyyəti İlə Məşğul Olmaq Hüququnun Keçirilməsi ... 12
Ərin (Arvadın) Boşanması Və Ya Həyat Yoldaşından Ayrılma ... 13
Varislik* ... 17
Tərəfdaşlıq fəaliyyətinin ləğv olunması ... 17
Məhsulların İstehlakçılara Satılması ... 17
Biznes qeydiyyatı və vergilər ... 17
Mükafat Və Xidmətlərə Görə Əlavə Mükafat ... 18
Sponsor Fəaliyyətinə Dəstək ... 18
Qaydalara əməl olunmasına nəzarət ... 20
Əlavə hüquq normaları ... 23
Fərdi məlumatların və məlumatın məxfiliyinin qorunması ... 24
Təriflər ... 25

# İşin başlanğıcı

## Müstəqil Tərəfdaşlar Fərdi Sahibkarlardır

Müstəqil Tərəfdaşlar – Herbalife-ın və ya digər Müstəqil Tərəfdaşın əməkdaşı, franşiza alanı, agenti olmayan və əksini bəyan edə və güman edə bilməyəcək özü üçün işləyən müstəqil kontragentlər, fərdi sahibkarlardır. Sponsor yalnız aşağı xətt Təşkilata aid olmasına əsaslanaraq digər Müstəqil Tərəfdaşları və ya öz aşağı xətt Təşkilatını əməkdaş kimi qiymətləndirməməlidir.

Əgər Sponsor ilə digər Müstəqil Tərəfdaş əmək münasibətlərindədirsə, Sponsor əmək qanunvericiliyinin bütün tələblərini yerinə yetirməlidir.

Muzdlu işçilərin Müstəqil Tərəfdaş kimi fəaliyyət aparması qadağandır.

Müstəqil Tərəfdaşlar "Müştəri xidməti" Qaydasında təsvir edilmiş xidmətləri müştərilərə şəxsən göstərməlidir

## Borc götürmək və ya vacib nailiyyətlər əldə etmək zərurətinin olmaması

Müstəqil Tərəfdaş Dəstini əldə etmək istisna olmaqla, Müstəqil Tərəfdaş statusunun əldə edilməsi üçün borcları təşviq etmək və ya alış-veriş etməyə məcbur etmək qadağandır.

# Herbalife məhsulunun satışı

## Qadağan edilmiş satış yerləri

Müstəqil Tərəfdaşlara Herbalife® məhsullarını bazarlarda (açıq və bağlı), apteklərdə, köşklərdə, stendlərdə (müvəqqəti və ya daimi), bit bazarlarında, səyyar ticarət nöqtələrində, daşınan konteynerlərdən, restoranlarda, ictimai iaşə müəssisələrində və ya digər oxşar yerlərdə satmaq qadağandır.

Xidmət sənayesi müəssisəsinin ayrıca binasında satışa icazə verilir.

## Pərakəndə sifariş blankları və satış haqqında sənədlər

Hər satışda Müstəqil Tərəfdaşlar hər müştəriyə tam doldurulmuş Pərakəndə sifariş forması təqdim etməlidir. Məhsul satışı haqqında istənilən sənədlər, eləcə də bütün Pərakəndə sifariş blanklarının 2 (iki) il ərzində saxlamaq lazımdır.

Herbalife satış sövdələşməsinin və şərtlərinin təsdiqlənməsi üçün məhsulun müştərilərə satılması haqqında sənədlərin surətini tələb etmək hüququnu özündə saxlayır. Sənədlər Herbalife-ın tələbi ilə təqdim edilməlidir.

## Müştərilərə təzminatlar

Müstəqil Tərəfdaşlar müştərilərə 30 günlük məhsulun geri qaytarılması zəmanətini verməlidir.

Müştəriyə iki seçim variantı vermək lazımdır: satışın və çatdırılmanın dəyərinin tam geri qaytarılması və ya digər Herbalife® məhsulları ilə dəyişdirilməsi.

Müstəqil Tərəfdaşlar təzminatın alınması üçün İmtiyazlı Müştəriləri Şirkətə göndərməlidir.

## Aqressiv satışlar

Müştərilərə, İmtiyazlı Müştərilərə və Müstəqil Tərəfdaşlara xidmət göstərilərkən Müstəqil Tərəfdaşların aqressiv satış üsullarından istifadə etməsi qadağandır.

## Məhsulun üçüncü şəxslər tərəfindən yayılması üçün satışı

Müstəqil Tərəfdaşların Herbalife® məhsullarını Müstəqil Tərəfdaş olmayan şəxslərə təkrar satış məqsədilə satması və digər formada təqdim etməsi qadağandır.

### Qablaşdırmanın, etiketin və materialların dəyişməsi

Müstəqil Tərəfdaşların Herbalife® məhsullarının etiketinin, ədəbiyyatının, materiallarının və ya qablaşdırmasının şəklini dəyişdirməsi qadağandır. Müstəqil Tərəfdaşların Herbalife® məhsullarını yenidən qablaşdırılması və ya tək-tək satılması üçün markalanmamış məhsulları satması qadağandır.

### Məhsulun təsviri və istifadəsi ilə bağlı tövsiyələr

Herbalife® məhsullarının satışı zamanı Müstəqil Tərəfdaşlar məhsulun etiketində göstərilən istifadə ilə bağlı göstərişləri və əks göstəriciləri alıcıya izah etməlidir.

Müstəqil Tərəfdaşlar hər hansı xəstəlikdən əziyyət çəkən və ya müalicə alan müştərilərə öz rasionlarında dəyişiklik etmədən əvvəl müalicə edən həkimi ilə məsləhətləşməyi tövsiyə etməlidir.

Müstəqil Tərəfdaşlar etiketdə göstərilən aktual məlumatı Herbalife® məhsullarını satmazdan əvvəl müştərilərə təqdim etməlidir.

### Eyniləşdirmə

Herbalife® məhsullarının satışı və ya təşviqi zamanı və ya biznes imkanlarının təşviqi zamanı Müstəqil Tərəfdaşlar özlərini Herbalife-ın Müstəqil Tərəfdaşı kimi təqvim etməlidir.

## Reklam

### Bəyanatlar

İstənilən bəyanat – Herbalife® məhsulları, Herbalife-ın biznes imkanları və ya onların üstünlükləri haqqında fikir, hekayə, təsvir və ya videodur. Müstəqil Tərəfdaşlar aşağıdakı şərtlərə əməl etməklə bəyanat verə bilər:

- doğrudur, aldadıcı deyil və yazılı şəkildə təsdiq edilmişdir;
- tətbiq edilən bütün Qaydalara və qanunvericiliyə uyğundur;
- məhsulun etiketində göstərilən məlumata uyğundur;
- tibbi deyil, xəstəliklərin yaxşılaşdırılması, müalicəsi və ya qarşısının alınması ilə əlaqəli deyil;
- zəmanətli gəlir və ya işə düzəlmə imkanları vəd etmir;
- həddən artıq yüksək gəlirlər və ya təmtəraqlı həyat tərzini nəzərdə tutmur və ya nümayiş etdirmir;
- rahat oxunan şəkildə olan vacib diskleymerlərlə müşayiət olunur.

Herbalife bu Qaydaları, qüvvədə olan qanunvericiliyi pozan və ya Herbalife Şirkətinin markasına və ya nüfuzuna zərər vuran istənilən bəyanatı götürməyi tələb etmək hüququnu özündə saxlayır.

### Qiymətlərin reklamı

Herbalife Şirkətinin platformalarında icazə verilmiş hallar istisna olmaqla, Müstəqil Tərəfdaşların qiymətlər haqqında məlumatı geniş auditoriyaya xəbər verməsi qadağandır.

### Herbalife-ın əqli mülkiyyəti

Herbalife, aşağıdakı şərtlərə əməl edilməklə, Müstəqil Tərəfdaşlara Herbalife-ın materialları və mal nişanları üzərindəki qorunmuş müəllif hüququndan istifadə etməsinə icazə verir:

- onlar Herbalife®-ın məhsullarının və biznes imkanlarının satışlarının təşviqi və istifadəsi üçün istifadə olunmur.
- materiallar Şirkət tərəfindən avtorizə olunmuş platformalardan yüklənir.
- mətn, təsvirlər və ticarət nişanları redaktə olunmur, kəsilmir və şəkli dəyişdirilmir.
- Müstəqil Tərəfdaşlar bəyan edirlər ki, materiallar Herbalife-ın mülkiyyətidir.
- Müstəqil Tərəfdaşlar heç vaxt Mark Hyuzun adından və ya vizual olaraq ona oxşar obrazdan hər hansı reklamda istifadə etmirlər.
- Müstəqil Tərəfdaşlar istənilən vebsaytın domen adında, istənilən registrdə və ya istənilən çöl lövhəsində addan və mal nişanlarından istifadə etmir.
- Müstəqil Tərəfdaşlar Herbalife-ın tələbi ilə müəllif hüququ ilə qorunan istənilən materiallardan və ya mal nişanlarından istifadəni dayandırır.
- Müstəqil Tərəfdaşlar bizneslərini Şirkətin qaydalarına uyğun idarə edirlər.

Əgər Herbalife Şirkəti kommersiya sirrini Müstəqil Tərəfdaşlara açıqlamır, o, məxfiliyi qoruyub saxlamalı və hətta Müstəqil Tərəfdaş Müqaviləsini özü və ya Şirkətin təşəbbüsü ilə ləğv etdikdən sonra onu açıqlamamalıdır.

Herbalife biznesini idarə edərkən, istifadəsinə sahibinin qabaqcadan razılığını almadan, Müstəqil Tərəfdaşların Şirkətin audio və ya videosundan, mal nişanlarından, adından, digər fiziki və ya hüquqi şəxslərə aid olan məhsulların və ya qrafikanın adından istifadə etməsi qadağandır.

### Reklamın qadağan olunması

Müstəqil Tərəfdaşların televiziyada, radioda və ya digər oxşar resursda yayımlar həyata keçirməsi və ya reklam yerləşdirməsi qadağandır.

Bundan əlavə, Müstəqil Tərəfdaşların qəzet, jurnal, vərəqə, məlumat kitabçası, banner, bilbord və digər çap formatlarında çat reklamını yerləşdirməsi qadağandır.

## Satış və Marketinq Planının əsasları

### Bir şəxs üçün bir Müstəqil Tərəfdaş Müqaviləsi

Vərəsəlik qaydalarına aid olan hallar istisna olmaqla, bir şəxs yalnız bir Müstəqil Tərəfdaş Müqaviləsi çərçivəsində çalışa bilər. Müstəqil Tərəfdaş eyni zamanda İmtiyazlı Müştəri də ola bilər. Hər iki Müstəqil Tərəfdaşın nikah bağladığı və Supervayzer statusunda olmaqla, Həyat yoldaşı olmaq barədə qərar qəbul etdiyi hallar istisna olmaqla, Evli cütlüklər və Həyat yoldaşları bir Müqavilə çərçivəsində çalışmalıdır.

### Məhsulun düzgün şəkildə əldə edilməsi

Supervayzer olmayan Müstəqil Tərəfdaşlar Herbalife® məhsullarını yalnız birbaşa Herbalife Şirkətindən, öz Sponsorundan və ya birinci yuxarı xətt Tam İxtisaslaşmış Supervayzerdən əldə edə bilər.

Müstəqil Tərəfdaşların digər Müstəqil Tərəfdaşlar və İmtiyazlı Müştərilər adından sifariş yerləşdirməsi və ya ödəməsi, bu şəxslərin yazılı razılığı Herbalife-a təqdim edilməsi istisna olmaqla, qadağandır.

Supervayzerlər məhsulları yalnız birbaşa Şirkətdən əldə edə bilər.

Yalnız birbaşa Herbalife-da əldə edilən məhsullar Satış və Marketinq Planı üzrə ixtisaslaşma, mükafat və imtiyazların alınması üçün nəzərdə tutulur.

### Biznesin inkişafında iştirak edən şəxslərin hərəkətinə görə məsuliyyət

Müstəqil Tərəfdaşlar onlara Herbalife biznesində kömək edən şəxslərin, o cümlədən Arvadın (Ərin), Həyat yoldaşının və ya Müstəqil Tərəfdaşlara xidmət göstərən üçüncü şəxslərin hərəkətlərinə görə məsuliyyət daşıyır.

### Qeyri-aktivlik dövrü

Yeni Ərizə verməyə və Müqaviləni digər Sponsor altında imzalamağa hazırlaşan Müstəqil Tərəfdaş Supervayzer və aşağı status üçün 1 illik və istənilən Müstəqil Tərəfdaş fəaliyyətini aparması qadağan olunduğu World Team və yüksək status üçün 2 illik Qeyri-aktivlik dövrünə əməl etməlidir.

Bu tələb həmçinin istənilən keçmiş İştirakçıya (Müstəqil Tərəfdaş, onun Arvadı (Əri), Həyat yoldaşı və ya biznesin inkişafında iştirak edən şəxs) da tətbiq edilir.

İmtiyazlı Müştərilər üçün Qeyri-aktivlik dövrü 180 təqvim günü təşkil edir.

Digər Müstəqil Tərəfdaşın biznesində iştirak etmək yolu ilə və ya digər istənilən üsulla Qeyri-aktivlik dövrünü hər hansı yan keçmək cəhdləri qadağandır.

## Sponsorluq və Liderlik

### TAB Team komandasının iştirakçılarının xidmətlərə görə Əlavə Mükafatın alınması haqqında ərizə

Müstəqil Tərəfdaş TAB Team səviyyəsini əldə etdiyi halda, o, xidmətlərə görə Əlavə Mükafatın ödəniş hüququnu əldə etmək üçün, TAB Team komandasının iştirakçıları tərəfindən xidmətlərə görə Əlavə Mükafatın alınması haqqında Ərizəni imzalamalıdır.

### Digər biznesə müdaxilə etməmə

Müstəqil Tərəfdaşların digər Müstəqil Tərəfdaşın biznesinə müdaxilə etməsi qadağandır.

### Herbalife ilə assosiasiya

Müstəqil Tərəfdaşlar Herbalife-ın hər hansı sahibkarlıq fəaliyyəti ilə, kommersiya və qeyri-kommersiya təşkilatları ilə əlaqədə olması və ya hər hansı dini, siyasi, sosial baxışları dəstəkləməsi təəssüratı yaratmamalıdır.

### Digər biznes imkanlarının təşviq edilməsi

Müstəqil Tərəfdaşların digər biznes imkanlarını Müstəqil Tərəfdaşlara və ya İmtiyazlı Müştərilərə təşviq etməsi qadağandır.

Müstəqil Tərəfdaşların digər birbaşa satış şirkətlərinin məhsullarını Müstəqil Tərəfdaşlara və ya İmtiyazlı Müştərilərə satması qadağandır.

### Biznesin inkişafı üçün alətlərin satışı

Müstəqil Tərəfdaşların digər Müstəqil Tərəfdaşlara biznesin inkişafı üçün alətlərin satışından mənfəət əldə etməsi qadağandır. Herbalife biznesin inkişafı üçün Şirkətin Qaydalarını, qanunvericiliyi pozan və ya Herbalife-ın nüfuzuna və ya imicinə zərər vuran alətin satışını və ya istifadəsini qadağan etmək hüququnu özündə saxlayır.

## Birbaşa satışlar

**Herbalife-ın biznes imkanlarının, Satış və Marketinq Planının tamlığının, məhsul paylama üsullarının dəstəklənməsi və mümkün zərərdən müdafiə olunması Herbalife Şirkəti və onun biznes imkanları üçün birinci dərəcəli əhəmiyyət daşıyır.**

**Bu bölmələrinə əməl olunmaması Müstəqil Tərəfdaş Müqaviləsinin müddəalarının ciddi pozuntusudur və Şirkətə mümkün olan bütün dəstək və müdafiə vasitələrindən istifadə, o cümlədən Müstəqil Tərəfdaş Müqaviləsini ləğv etmək imkanını saxlayır.**

### Satış və Marketinq Planının manipulyasiyası

Müstəqil Tərəfdaşların Satış və Marketinq Planının Manipulyasiyası kimi xarakterizə oluna biləcək istənilən fəaliyyətdə birbaşa və ya dolayı yolla iştirak etməsi, iş üsullarından istifadə etməsi və ya əməllər törətməsi qadağandır. Müstəqil Tərəfdaşların əsas məqsədi statusa və ya tanınmaya, Satış və Marketinq Planı üzrə irəliləyişə əsasən mükafatların alınması və ya digər Müstəqil Tərəfdaş tərəfindən alınması olan məhsul alışını həyata keçirməsi və ya təşkil etməsi qadağandır (müştəriyə satmaq məqsədilə və ya şəxsi istifadə üçün məhsulun ağlabatan sayda əldə edilməsindən fərqli olaraq).

Satış və Marketinq Planının Manipulyasiya əlamətlərinin nümunələrinin daxil olduğu, lakin onlarla məhdudlaşmayan siyahı burada əlçatandır.

**Qaydalara uyğunsuzluq və görülən tədbirlər**

Satış və Marketinq Planının Manipulyasiyası Müstəqil Tərəfdaş Müqaviləsinin müddəalarının ciddi pozuntusudur və bununla əlaqədar olaraq, Herbalife Şirkəti, hətta qabaqcadan yazılı razılıq olmadan Müqavilənin ləğv edilməsinə qədər, mövcud olan bütün hüquq müdafiəsi vasitələrini tətbiq etmək hüququnu özündə saxlayır.

Müstəqil Tərəfdaş həmçinin Satış və Marketinq Planının Manipulyasiyası nəticəsində Herbalife Şirkətinə vurulmuş istənilən zərərə görə məsuliyyət daşıyır.

Digər tədbirlər kimi istənilən birbaşa və ya dolayı şəkildə cəlb edilmiş Müstəqil Tərəfdaşın mükafatlardan və ixtisaslaşmadan məhrum edilməsi ola bilər. Yuxarı xətt Müstəqil Tərəfdaşlara maliyyə zərərinin vurulmasının qarşısını almaq üçün ünvanlanmış pozuntu ilə bağlı yoxlama müddətində Tərəfdaşlıq barəsində müəyyən tədbirlərin görülməsi, məsələn, sifariş yerləşdirmək hüququnun dayandırılması tələb oluna bilər.

## Müştəri xidməti

Herbalife məhsullarının ilk alışından əvvəl Müstəqil Tərəfdaşlar müştəri ilə şəxsən və ya onlayn rejimdə ünsiyyətdə fərdi yanaşma tətbiq etməlidir. Müstəqil Tərəfdaşların Müştəri xidmətini şəxsi ünsiyyət vasitəsilə göstərməsi vacibdir.

Müştərinin ilk alışından əvvəl Müstəqil Tərəfdaşlar keçidi üzrə əlçatan olan xidmətlərin minimal siyahısını təqdim etməlidir

Müstəqil Tərəfdaşlar öz müştərilərini müşayiət etməli və onlara Herbalife məhsullarından istifadədə ən yaxşı nəticələrin əldə edilməsində kömək etməlidir.

Bəzi nümunələrin olduğu siyahı aşağıdakı keçid üzrə əlçatandır.

## Lider dəstəyi və Təşkilatın təlimləndirilməsi

Sponsorlar aşağı xətt Təşkilatlarının öyrədilməsinə görə məsuliyyət daşıyırlar, lakin bu təlimdən mənfəət əldə etməməlidir.

Bəzi nümunələrin olduğu siyahı aşağıdakı keçid üzrə əlçatandır.

## Hərrac saytlarında və kənar onlayn ticarət meydançalarında (birlikdə “Kənar saytlar” adlandırılırlar) satışların qadağan olunması

Kənar saytlardakı satışlar Müstəqil Tərəfdaşları, eləcə də Herbalife-ın öz müştəriləri üçün yaratdığı markanı, imici və marketinq mövqeyini inkişaf etdirməli olan müştərilərlə şəxsi münasibətləri zəiflədir. Bu, digərləri ilə yanaşı, aşağıdakı faktorlarla izah edilir:

- Kənar saytlar kənar sayt operatorunun adını və loqotipini əks etdirir;
- çox vaxt malın keyfiyyəti və ya istehlak xarakteristikaları barədə yalan ola biləcək və ya hətta qanunvericiliyi poza biləcək qeyri-dəqiq məlumatlar verirlər;
- Herbalife məhsullarını Herbalife-ın bazar mövqeyinə və imicinə uyğun olmayan kontekstdə yerləşdirir.

Müstəqil Tərəfdaşlara özlərinin Müstəqil internet mağazaları vasitəsilə və ya Herbalife Şirkətinin yaratdığı platformalar vasitəsilə onlayn satışlar həyata keçirməyə **icazə verilir**.

Müstəqil Tərəfdaşların açıq hərraclarda iştirak etmək, alqı-satqının həyata keçirildiyi kommersiya saytında və internet bazarlarında, kənar saytda və ya üçüncü tərəfin adını və ya loqotipini daşıyan, digər formada markalanmış və ya kənar sayt kimi eyniləşdirilmiş digər hər hansı saytda təsbit edilmiş qiymətə və ya digər formada satışı haqqında elanların yerləşdirilməsi yolu ilə Herbalife® məhsullarını satış üçün təklif etməsi, satması və ya satmaq təklifinə və ya satışına kömək etməsi (birbaşa və ya dolayı yolla, istənilən üsulla və ya istənilən vasitələrlə) **qadağandır**.

Herbalife® məhsullarının satışını həyata keçirmək üçün sosial şəbəkələrdən istifadə edilməsi qadağandır.

## Müstəqil Tərəfdaşların vebsaytları və tətbiqləri

Herbalife mal nişanlarından istifadə etməklə, öz vebsaytlarını və tətbiqlərini dəstəkləyən Müstəqil Tərəfdaşlar, Herbalife® məhsullarını təşviq etmək və ya satışını təklif etmək üçün aşağıdakıları etməlidir:

- Vebsayta hər dəfə daxil olarkən görünən, Herbalife-ın təqdim etdiyi üzən pəncərəni heç bir dəyişiklik etmədən dəqiq əks etdirmək;

- Müstəqil Tərəfdaşın adını, soyadını və əlaqə məlumatını, o cümlədən ünvanını, telefon nömrəsini görünən yerdə olmalı olan (səhifənin yuxarısında) və sayta daxil olanları cəlb etməli olan “Herbalife-ın Müstəqil Tərəfdaşı” loqotipi ilə birlikdə dəqiq əks etdirmək;

- Veb saytın və ya tətbiqin oxşar olmadığından və ya onun Herbalife Şirkətinin rəsmi vebsaytı və ya tətbiqi olduğu təəssüratı yaratmadığından əmin olmaq.

Müstəqil Tərəfdaşlar öz vebsaytında şəxsən işləməlidir. Bir vebsaytda yalnız bir Müstəqil Tərəfdaş işləyə, sifarişləri emal edə və ya biznesi digər şəkildə inkişaf etdirə bilər.

### Kontekst reklam və axtarış sisteminin optimallaşdırılması

Müstəqil Tərəfdaşlar axtarış sistemlərində axtarışın Müstəqil Tərəfdaşın vebsaytı ilə Herbalife Şirkətinin rəsmi vebsaytları arasında çaşqınlığa səbəb ola biləcək vəziyyət yaratmamalıdır.

*Qadağan olunmuş sözlər/ifadələr siyahısında* göstərilən sözlər və ifadələr Müstəqil Tərəfdaşın vebsaytı ilə əlaqəli olan axtarış sisteminin istənilən nəticəsində görünməməlidir.

Ödənişli axtarış reklamından istifadə edən Müstəqil Tərəfdaşlar **“Herbalife-ın Müstəqil Tərəfdaşı”** ifadəsini mütləq elanda yerləşdirməlidir.

### Qadağan olunmuş biznes təcrübələri

Herbalife® məhsullarını və/və ya Herbalife-ın biznes imkanlarını təklif, təşviq etməklə və ya barəsində danışmaqla, Müstəqil Tərəfdaşların qüvvədə olan qanunvericilik çərçivəsində biznesin idarə olunmasının qeyri-səmimi təcrübələrinə əl atması, o cümlədən, lakin məhdudlaşdırmadan, çaşdırması, yalan məlumat verməsi və ya aqressiv satışlar aparması qadağandır.

### Potensial müştərilər və tövsiyə ilə gələn şəxslər

Müstəqil Tərəfdaşlar potensial müştərilər haqqında məlumatı satın ala və ya sata və ya tövsiyələrə görə ödəniş edə bilməz. Lakin onlar öz istifadəsi üçün potensial müştərilərin və tövsiyə edilmiş şəxslərin siyahısını sərbəst şəkildə hazırlaya və ya bu məlumatı digər Müstəqil Tərəfdaşlara pulsuz təqdim edə bilər.

Müstəqil Tərəfdaşlar, aşağıdakı şərtlərə əməl etmədən, potensial müştərilərin siyahısını aşağı xətt Müstəqil Tərəfdaşa avtomatik olaraq, sistemli şəkildə və ya digər formada ötürməməlidir:

- Potensial müştəri məlumatlandırılmışdır və aşağı xətt Müstəqil Tərəfdaşın onunla işləməyə başlayacağı barədə qabaqcadan və ya onun əlaqəsi ötürülən anda razılıq vermişdir.

- Potensial müştərinin əlaqəsini almış aşağı xətt Müstəqil Tərəfdaş satışlara, müştərinin gələcək müşahidəsini və dəstəklənməsini tam şəkildə öz üzərinə götürür.

## Sağlam həyat tərzi Klubları və ofislər

### Biznesin idarə olunması üçün yerin icarəsi və ya satın alınması

Herbalife biznesinin aparılması üçün istənilən yerin icarə, subicarə və ya satınalma Müqaviləsini imzalamazdan əvvəl Müstəqil Tərəfdaş:

- Ən azı 90 gün Herbalife-ın Müstəqil Tərəfdaşı olmalıdır.
- Tam İxtisaslaşmış Supervayzer olmalıdır.
- Herbalife Şirkətinin tələb etdiyi şərtləri yerinə yetirməlidir.
- Yerləri MyHerbalife.com saytında onlayn qaydada yerləşdirməlidir

### Bir neçə Klubun idarə olunması

Müstəqil Tərəfdaşlar Klubun idarə olunması məqsədilə maksimum üç yerdə fəaliyyət aparmaq və ya maksimum üç icarə Müqaviləsini imzalamaq hüququna malikdir.

## Klubun idarə olunması ilə bağlı ödənişli məsləhətlərin qadağan olunması

"Lider dəstəyi və Təşkilatın təlimləndirilməsi" Qaydasında göstərilən hallar istisna olmaqla, Müstəqil Tərəfdaşların Klub açılması və ya idarə edilməsi ilə bağlı yardım və ya məsləhətə görə digər Müstəqil Tərəfdaşlardan ödəniş tələb etməsi qadağandır.

## Məsul Klub Təşkilatçısı

Bir Müstəqil Tərəfdaş Sağlam həyat tərzi Klubunun bütün fəaliyyətinə görə tam məsuliyyət daşıyan və ona nəzarət edən Klub Təşkilatçısı qismində təyin edilməlidir.

Klub Təşkilatçısı özü yerində olmadıqda Sağlam həyat tərzi Klubunun fəaliyyətinə görə məsuliyyət daşıyan digər Müstəqil Tərəfdaşı təyin etməlidir.

## Klub otaqlarından birgə istifadə

Klub Təşkilatçısı mənfəət əldə etmək üçün yox, yalnız Klubun xərclərini qarşılamaq üçün digər Müstəqil Tərəfdaşlardan ödəniş tələb edə bilər. Klub otaqlarını subicarəyə götürən bütün Müstəqil Tərəfdaşlar "Biznesin idarə olunması üçün yerin icarəsi və ya satın alınması" Qaydasında göstərilən bütün tələbləri yerinə yetirməlidir.

## Məhsulun pərakəndə satışı

Müstəqil Tərəfdaşlar qablaşdırılmış, amma satış üçün fərdi qablaşdırmada markalanmamış məhsulların satışı üçün satılan məhsulun etiketində olan məlumatı qanunvericiliyə uyğun olaraq təqdim etməlidir.

Hədlərin tək-tək satılması və ya təklif olunması, eləcə də yenidən qablaşdırılmış məhsulun və dağılmış məhsulun satışı qadağandır.

## Herbalife məhsullarının hazırlanması

Müstəqil Tərəfdaşlar Sağlam həyat tərzi Klublarında təklif olunan məhsulları icazə verilmiş hazırlanma üsullarına uyğun hazırlamalı və məhsulun etiketində göstərilən məlumatı, o cümlədən mümkün allergenləri müştərilərə təqdim etməlidir. Əgər məhsullar qablaşdırmanın üzərində göstərilən təlimata uyğun qarışdırılmırsa, onların xassələrini bəyan etmək qadağandır.

Sağlam həyat tərzi Klubunda yalnız Herbalife® məhsullarının qonaq edilməsinə, satışına və ya təşviq edilməsinə icazə verilmişdir. Meyvələr, tərəvəzlər və ədviyyatlar kimi əlavələrə yol verilir.

## Çatdırılma

Müstəqil Tərəfdaşların:

- üçüncü şəxslərin, məsələn, Wolt, Fooderos, Uber Eats, Grubhub və oxşarların çatdırılma xidmətlərindən istifadə etməsi qadağandır;
- müştərilərə avtomobillər üçün restoranlar formatında və ya xidmət pəncərəsindən xidmət göstərilməsi qadağandır.

## Mənfəət əldə edilməsi üçün Klubların satışının qadağan olunması

**İcarəyə verilmə:** Klubların mənfəət əldə edilməsi məqsədilə satışı qadağandır. Lakin, avadanlıq və təmir xərclərinin əvəzi ödənilməklə, icarəyə verilməsini icazə verilmişdir. Tələbə görə Müstəqil Tərəfdaşlar həmin xərcləri təsdiq edən sənədləri təqdim etməlidir.

İcarə Müqaviləsini bağlamazdan əvvəl Müstəqil Tərəfdaş ilk öncə "Biznesin idarə olunması üçün yerin icarəsi və ya satın alınması" Qaydasında göstərilən bütün tələbləri yerinə yetirməlidir.

## Qeyri-yaşayış sahəsində Klubun lövhəsi və adı

Klubun qeydiyyat prosesində Müstəqil Tərəfdaşlar klubun təklif olunan lövhəsi və adı haqqında məlumatı Herbalife Şirkətinə təqdim etməlidir. Yoxlama sənədləri yerin Klub üçün icarə, subicarə və satınalma müqaviləsini bağlamazdan əvvəl təqdim edilməlidir.

**İstifadə olunan lövhədə Müstəqil Tərəfdaş:**

- Digər Klub ilə eyni və ya oxşar olan ad və ya lövhədən istifadə edə bilməz;
- Herbalife® məhsullarının satış üçün əlçatan olduğunu göstərə bilməz;
- Bunun franşiza və ya Sağlam həyat tərzi Klubları şəbəkəsinin bir hissəsi olması təsəvvürünü yaradan konkret qrupu: coğrafi mövqeyi, Müstəqil Tərəfdaşın Təşkilatını, Qida Klublarını, Sağlam həyat tərzi Klublarını və sairi işarələmək üçün addan və ya lövhədən istifadə edə bilməz;
- Herbalife-ın əqli mülkiyyətindən, məhsulların və markaların adından istifadə edə bilməz.

Bayırdan görünən və franşiza kimi qəbul edilə biləcək hər şey yuxarıda göstərilən məhdudiyyətlərə aiddir.

### Qeyri-yaşayış sahəsində Klubun xarici tərtibatı

Pəncərə və qapıların örtüyü vacibdir, lakin Klubun xarici tərtibatında aşağıdakılara yol verilmir:

- Herbalife markasını (adını, loqotipini və sairi) yerləşdirmək;
- Herbalife® məhsullarının satış üçün əlçatan olduğunu göstərmək;
- "Əvvəl və Sonra" fotoşəkillərini və ya digər fotoşəkilləri müqayisəli şəkildə yerləşdirmək;
- Pəncərə və qapı örtüyü daxil olmaqla, digər Klubla eyni və ya oxşar xarici tərtibata malikdir.

Klubdan çöldə görünməməsi şərtilə, Herbalife® məhsullarını, Herbalife məhsulları haqqında materialları, reklam materiallarını Klubda nümayiş etdirmək olar.

## Beynəlxalq biznes

### Biznes üçün açıq olmayan ölkələrdə və ərazilərdə fəaliyyət

Müstəqil Tərəfdaşların Herbalife biznesi üçün rəsmi qaydada açıq olmayan ölkədə Herbalife biznesi ilə məşğul olması qadağandır.

### Məhsul ixracının qadağan olunması

Müstəqil Tərəfdaşların bir ölkədən digər ölkəyə məhsul göndərməsi, satması, ixrac etməsi və ya yayması qadağandır.

B qüvvədə olan qanunvericiliyə və Herbalife-ın siyasətlərinə uyğun olaraq, digər ölkələrə səyahət edən Müstəqil Tərəfdaşlar şəxsi istifadə üçün ayda 1500 Həcm Balını aşmayan məhsulları daşıya bilər.

### Çində bizneslə məşğul olmaq

Yalnız Çin vətəndaşları Çində bizneslə məşğul olmaq hüququna malikdir. Müstəqil Tərəfdaşların hər hansı Herbalife® məhsulunu hətta şəxs istifadə üçün Çinə göndərməsi və ya gətirməsi qadağandır.

### Ölkələr, bölgələr və ayrı-ayrı şəxslər üçün qadağalar

Müstəqil Tərəfdaş qapalı ölkələrdə və bölgələrdə rezident ola və ya Herbalife biznesi ilə məşğul ola bilməz.

Müstəqil Tərəfdaş Herbalife biznesi ilə, fiziki şəxslə və ya təşkilatla əlaqəli olan, Müstəqil Tərəfdaşa aşağıdakıları hesab etməyə əsas verən hər hansı fəaliyyətlə birbaşa və ya dolayı yolla məşğul ola bilməz:

(i) onların daima qapalı ölkədə və ya bölgədə yaşadığını və ya bizneslə məşğul olduğunu;
(ii) Şirkətin məhsullarını qapalı ölkədə və ya bölgədə yaşayan şəxslərə təkrar satılmasına cəlb edildiyini;
(iii) qapalı ölkədə və ya bölgədə qeydiyyatda olan və ya yaşayan hüquqi və ya fiziki şəxs olduğunu və ya onların maraqlarını təmsil etdiyini;
(iv) ABŞ Maliyyə Nazirliyinin xarici aktivlərə nəzarət İdarəsinin idarəçiliyində olan xüsusi qeyd edilmiş şəxslərin Siyahısına daxil edildiyini və ya maraqlarını təmsil edən hər hansı fiziki şəxs, siyahıda göstərilən vətəndaşlara məxsus olan hüquqi şəxs və ya təşkilat olduğunu.

# Ümumi Davranış Qaydaları

## Qüvvədə olan qanunvericiliyə və qaydalara əməl olunması

Müstəqil Tərəfdaşlar bizneslə məşğul olduqları hər bir ölkənin tətbiq edilən qanunvericiliyinə, o cümlədən qaydalarına, qətnamələrinə, fərmanlarına və lisenziya tələblərinə və Herbalife-ın Qaydalarına əməl etməlidir. Müstəqil Tərəfdaşlar digər Müstəqil Tərəfdaşları onları pozmağa təşviq etməməlidir.

Herbalife-ın Qaydaları ilə qanunvericilik arasında ziddiyyətlər olduğu halda, qanunvericilik üstün qüvvəyə malikdir.

Müstəqil Tərəfdaşlar Herbalife biznesi ilə məşğul olarkən istifadə etdikləri xidmətlərlə bağlı üçüncü şəxslərin istifadəçi şərtlərinin tələblərinə əməl etməlidir.

## Herbalife Şirkətinə dürüst və aktual məlumatın təqdim edilməsi

Herbalife Şirkətinə təqdim edilən bütün məlumatlar dürüst, dolğun və vaxtında olmalıdır. Buraya Ərizə, formalar, blanklar, ödəniş qəbzləri, biznesin qeydiyyatını və/və ya vergi orqanlarında qeydiyyatını təsdiq edən sənədlər, əlaqə məlumatları və sifarişlər daxildir.

## Herbalife-ın nüfuzunun və imicinin dəstəklənməsi

Müstəqil Tərəfdaşlar Herbalife-ın nüfuzuna, imicinə, məhsullarına, əqli mülkiyyətinə və ya işgüzar nüfuzuna zərər vurmamalıdır.

## Hüquqların tapdalanmasına, təqibə və qeyri-münasib davranışa olan münasibət

Herbalife hüquqların tapdalanmasını, təqib və qeyri-münasib davranış göstərilməsini qadağan edir.

## Herbalife-ın yoxlamalarına kömək göstərilməsi

Şirkət yoxlamalar aparan zaman Müstəqil Tərəfdaşlar Herbalife ilə əməkdaşlıq etməlidir.

## Rəqabətə mane olmağın qadağan edilməsi

Biznesin Müstəqil sahibi olmaqla, Müstəqil Tərəfdaşlar aşağıdakılar barəsində digər Müstəqil Tərəfdaşlarla sözləşməməlidir:

- Herbalife məhsullarının satış qiyməti haqqında
- məhsul satışının ərazi bölgüsü haqqında
- paylama üsulları haqqında
- müştərilərin, İmtiyazlı Müştərilərin və ya Müstəqil Tərəfdaşların bölüşdürülməsi haqqında

## Oyun fəaliyyətlərinin təşviq edilməsi

Müstəqil Tərəfdaşların Herbalife biznesini həyata keçirərkən lotereyalar, o cümlədən uduşlu lotereyalar keçirməsi qadağandır. Təşkilatda satışları təşviq edən digər oyun fəaliyyətlərinin, məsələn, Zəriflik Marafonlarının, Bədən transformasiyası üzrə müsabiqələrin, promouşenlərin, marafonların və pulsuz uduş oyunlarının təşviq edilməsinə yalnız Müsabiqələrin təşkili və oyun fəaliyyətlərinin təşviqi üzrə təlimata uyğun olduğu halda yol verilir.

# İnzibati Qaydalar

## Müqavilə İlə Təqdim Olunan Hüquqlar

### Müqavilənin bağlanması üçün minimal yaş

Herbalife-ın Müstəqil Tərəfdaşı olmaq və ya digər Müstəqil Tərəfdaşın biznesində iştirak etmək üçün namizədin ən azı 18 yaşı olmalıdır.*

** Yaş tələbləri ölkədən asılı olaraq dəyişə bilər. Başqa ölkələr üçün yaş tələblərini öyrənmək üçün, xahiş edirik, İnformasiya dəstəyi şöbəsinə müraciət edin.*

### Ərin (arvadın) və ya həyat yoldaşının tanınması

Müstəqil Tərəfdaş biznesdə dəstək və tanınma məqsədi ilə* həyat yoldaşının adını Müstəqil Tərəfdaş müqaviləsinə əlavə edə bilər.

Müstəqil Tərəfdaş sənədlərdə öz statusunu qoruyub saxlayır. Lakin Müstəqil Tərəfdaş həyat yoldaşından ayrıldığı halda, bu mülkiyyət hüququ və ya Tərəfdaşlıqla əlaqəli digər hüquqlara təsir edə bilər**.

** Misal üçün, tanınma Herbalife tədbirlərini ziyarət etməyə, yeni biznes və Satış və Marketinq planı üzrə nailiyyətlərin qəbul edilməsinə imkan yaradır*

*** Həyat yoldaşı ilə boşanma/ayrılma halında həyat yoldaşının adının müqavilədə olub-olmaması məhkəmə qərarına təsir edə bilər.*

## Tərəfdaşlıq Fəaliyyəti İlə Məşğul Olmaq Hüququnun Keçirilməsi

### Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququnun ötürülməsi, satılması və ya başqasına verilməsi

Yalnız Herbalife-ın şəxsi mülahizəsi ilə təqdim olunan Herbalife şirkətinin əvvəlcədən yazılı razılığı olmadan tərəfdaşlıq fəaliyyətində istənilən hüquqları və ya iştirak payını başqasına vermək, satmaq və ya ötürmək qadağandır.

Müstəqil Tərəfdaş Qaydalarından və ya qanunvericilikdən yan keçmək üçün tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququnu kiməsə ötürə bilməz. Əgər Herbalife-a keçmiş Müstəqil Tərəfdaşın (Müqavilə üzrə hüquq və öhdəliklərini ötürən şəxs) və (və ya) Müqavilə üzrə hüquq və öhdəliklərini ötürən şəxsin Ərinin (arvadının) və ya Həyat yoldaşının hüquqların ötürülməsinə dair razılığın verilməsindən sonra özünü və ya fəaliyyətini Qaydalara uyğun olmayan şəkildə apardığı məlum olarsa, Herbalife-ın ötürülən Tərəfdaşlığa sanksiya tətbiq etmək hüququ var.

### Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququnun yalnız Herbalife-ın Müstəqil Tərəfdaşı olmayan şəxsə ötürülməsi, satışı və ya verilməsi imkanı

Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququ hazırkı Vərəsəlik Qaydasında göstərilən hallar istisna olmaqla, yalnız Herbalife-ın Müstəqil Tərəfdaşı olmayan şəxsə ötürülə, satıla və ya verilə bilər. Təklif olunan Müstəqil Tərəfdaş (Hüquqi varis), Qeyri fəallıq dövrünə aid şərtləri yerinə yetirməyibsə (baxın. “Qeyri-fəallıq dövrü”) Herbalife müqavilə üzrə hüquqların ötürülməsi barədə sorğunu nəzərdən keçirməyəcək.

### Status və üstünlüklər

Müstəqil Tərəfdaşın nailiyyətləri onun şəxsi nailiyyətləridir, buna görə də tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququnun ötürülməsi, satışı və ya verilməsinin təsdiqi zamanı Müstəqil Tərəfdaşın əldə etdiyi status və üstünlüklər tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququ ilə birlikdə ötürülə bilməz. Müqavilə üzrə hüquq və öhdəliklərin ötürüldüyü şəxsdən ötürülmə və ya verilmə həyata keçirildikdən sonra statusun və güzəştlərin alınması üçün bütün ixtisaslaşma tələblərinin yerinə yetirilməsi tələb oluna bilər. Bu tələblərə Supervayzer statusuna, TAB Team komandasına, Herbalife tətillərinə ixtisaslaşma və ya müəyyən Müstəqil Tərəfdaşın hüquqları daxildir.

### Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququnun ötürülməsindən sonra məsuliyyət

Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququnun ötürülməsindən sonra:

- Müqavilə üzrə hüquq və öhdəliklərin ötürüldüyü şəxs tərəfdaşlıq fəaliyyətinin aparılması ilə bağlı və müqavilə üzrə hüquq və öhdəlikləri ötürən şəxs tərəfindən və ya onun adından istənilən hüquq pozuntularına görə Herbalife-ın qarşısında məsuliyyət daşıyır.

- Müqavilə üzrə hüquq və öhdəliklərin ötürülməsi qüvvəyə mindiyi tarixdən sonra 6 ay ərzində müqavilə üzrə hüquq və öhdəlikləri ötürən şəxsin və/və ya onun Ərinin (arvadının) və ya Həyat yoldaşının hərəkətləri müqavilə üzrə hüquq və öhdəliklər ötürülən şəxs (hüquqi varis) tərəfindən pozuntular kimi qiymətləndiriləcək.

## Ərin (Arvadın) Boşanması Və Ya Həyat Yoldaşından Ayrılma

### Yeni Müstəqil Tərəfdaş Müqaviləsinin tərtib olunması

Müstəqil Tərəfdaşın Həyat yoldaşı boşanma proseduru zamanı və ya boşandıqdan/ayrıldıqdan dərhal sonra Herbalife biznesi ilə məşğul olmağa davam etmək istəyirsə, həm Müstəqil Tərəfdaş, həm Həyat yoldaşı Yeni Tərəfdaşlıq fəaliyyətini ilkin Sponsorun adı altında rəsmiləşdirməlidir. Herbalife ilkin Tərəfdaşlıq fəaliyyəti üzrə məhsulların alınması ilə əlaqəli imtiyazları ləğv edəcək və İlkin müqavilədən fəaliyyəti Ümumi İlkin Tərəfdaşlıq fəaliyyətinin yaradılması prinsipinə görə bölüşdürəcəkdir (baxın. Ər-arvadın boşanması və ya Həyat Yoldaşı ilə münasibətlərin dayandırılması və Herbalife-ın Satış və Marketinq Planı). Hər Müstəqil Tərəfdaş öz biznesində yeni ID nömrəsini istifadə etməlidir.

| | | |
|---|---|---|
| **NİGAR MƏMMƏDOVA**<br>(Fərdi Tərəfdaşlıq fəaliyyəti)<br>B | **NİGAR & MƏMMƏD MƏMMƏDOV**<br>(İlkin Tərəfdaşlıq fəaliyyəti)<br>A | **MƏMMƏD MƏMMƏDOV**<br>(Fərdi Tərəfdaşlıq fəaliyyəti)<br>C |

İlkin Tərəfdaşlıq fəaliyyəti və aşağı xətt Təşkilat Müstəqil Tərəfdaş və onun keçmiş Həyat yoldaşı arasında bölüşdürülə bilməz. Məsələn, onlar hər birinə 50% sahiblik hüququ verməklə Müstəqil Tərəfdaş biznesini "bölüşdürə" bilməz.

Herbalife-a boşanma prosedurunun rəsmiləşdirilməsi və yeni Müstəqil Tərəfdaş Müqaviləsinin bağlanması üçün aşağıdakı sənədlər tələb olunur:

**Həyat yoldaşları boşanan zaman**

- Müstəqil Tərəfdaş və onun həyat yoldaşı üçün ilkin Sponsorun adı altında doldurulan və imzalanan yeni Ərizələr
- Şahidlərin imzaladığı və təsdiqlədiyi boşanma ərizəsi və müqavilənin bölüşdürülməsi
- Nikahın pozulması haqqında şəhadətnamənin surəti və ya boşanma barədə yekun məhkəmə qərarı
- TAB Team komandasına verilən imtiyazların qorunub saxlanması üçün sorğu. Xidmətlərə görə Əlavə mükafatın alınması üçün imzalanmış yeni ərizə əlavə olunmalı, fərdi Tərəfdaşlıq fəaliyyətinin eyniləşdirmə nömrəsi (yalnız TAB Team komandasının nümayəndələri üçün) göstərilməlidir

**Həyat yoldaşı ilə ayrılan zaman**

- Müstəqil Tərəfdaş və onun həyat yoldaşı üçün ilkin Sponsorun adı altında doldurulan və imzalanan yeni Ərizələr
- Faktiki nikah münasibətlərinin pozulması barədə ərizə (şahidlərin imzaladığı və təsdiqlədiyi Həyat yoldaşı ilə boşanma barədə forma hər iki tərəfdən alınmadığı halda, iki (2) şahidin təsdiqlədiyi maddi münasibətlərin pozulması barədə forma tələb olunur)
- TAB Team komandasına verilən imtiyazların qorunub saxlanması üçün sorğu. Xidmətlərə görə Əlavə mükafatın alınması üçün imzalanmış yeni ərizə əlavə olunmalı, fərdi Tərəfdaşlıq fəaliyyətinin eyniləşdirmə nömrəsi (yalnız TAB Team komandasının nümayəndələri üçün) göstərilməlidir.

Müstəqil Tərəfdaş təkrar nikaha daxil olursa və ya yeni Həyat yoldaşını qeyd edirsə, yeni Həyat yoldaşı xidmətlərin tanınması proqramında iştirak etməsi üçün yeni Fərdi Müstəqil Tərəfdaş Müqaviləsinə əlavə edilə bilər.

| | | |
|---|---|---|
| **NİGAR MƏMMƏDOVA**<br>(Fərdi Tərəfdaşlıq fəaliyyəti)<br>B | **NİGAR & MƏMMƏD MƏMMƏDOV**<br>(İlkin Tərəfdaşlıq fəaliyyəti)<br>A | **MƏMMƏD MƏMMƏDOV**<br>(Fərdi Tərəfdaşlıq fəaliyyəti)<br>İRADƏ MƏMMƏDOVA<br>(yeni Həyat yoldaşı)<br>C |

**Bir neçə boşanma/Ayrılma**
Həyat yoldaşları arasında nikah pozulduqda və ya onlar ayrıldığı halda, Herbalife yalnız nikahı pozan və ya ayrılan Müstəqil Tərəfdaşlardan birinin biznesini qəbul edir və mövcud bizneslə əlaqələndirir. Bir neçə boşanma və ya ayrılma halında boşanan/ayrılan Həyat yoldaşı yeni Müstəqil Tərəfdaş Müqaviləsini bağlamaq imkanına malik olacaq, lakin İlkin Tərəfdaşlıq fəaliyyəti ilə birləşdirilməyəcək.

Məsələn, Məmməd və İradə boşanır və ya ayrılırsa, İradə yeni Müstəqil Tərəfdaş müqaviləsini (“D”) ilkin Sponsorun adı altında rəsmiləşdirə bilər, lakin o Məmmədin Müstəqil Tərəfdaş müqaviləsi (“C”) ilə əlaqəli olmayacaq.

| | | | |
|---|---|---|---|
| **NİGAR ƏLİYEVA**<br>(Fərdi Tərəfdaşlıq fəaliyyəti)<br>(Birinci boşanma/ayrılma)<br>B | **NİGAR & MƏMMƏD**<br>MƏMMƏDOV<br>(İlkin Tərəfdaşlıq fəaliyyəti)<br>A | **MƏMMƏD MƏMMƏDOV**<br>(Fərdi Tərəfdaşlıq fəaliyyəti)<br>(Birinci boşanma/ayrılma)<br>C | **İRADƏ HÜSEYNOVA**<br>(Fərdi Tərəfdaşlıq fəaliyyəti)<br>(təkrar boşanma/ayrılma)<br>D |

İradənin Satış və Marketinq Planı üzrə statusu (“D”) Məmmədin Fərdi tərəfdaşlıq fəaliyyəti statusu ilə (“C”) eyni olacaq. Məsələn, müqaviləyə (“C”) GET Team statusu verilibsə, İradənin yeni müqaviləsinə (“D”) GET Team statusu veriləcək.

| | | | |
|---|---|---|---|
| **NİGAR ƏLİYEVA**<br>(Fərdi Tərəfdaşlıq fəaliyyəti)<br>(Birinci boşanma/ayrılma)<br>President’s team<br>B | **NİGAR & MƏMMƏD MƏMMƏDOV**<br>(İlkin Tərəfdaşlıq fəaliyyəti)<br>President’s team<br>A | **MƏMMƏD MƏMMƏDOV**<br>(Fərdi Tərəfdaşlıq fəaliyyəti)<br>(Birinci boşanma/ayrılma)<br>(GET Team statusu)<br>C | **İRADƏ HÜSEYNOVA**<br>(Fərdi Tərəfdaşlıq fəaliyyəti)<br>(təkrar boşanma/ayrılma)<br>GET Team statusu<br>D |

### Müstəqil Tərəfdaşın ilkin müqaviləsinə dəyişikliklərin daxil edilməsi üzrə sorğu
Herbalife Müstəqil Tərəfdaşın ilkin müqaviləsinə dəyişikliklərin daxil edilməsi ilə bağlı sorğuları qəbul edəcək. Bütün sorğuları hər iki tərəf imzalamalı və onlar notarial qaydada təsdiq olunmalıdır. Herbalife-ın məhkəmənin boşanma barədə qüvvəyə minən qərarının təsdiqlənmiş surətini alması halı istisnadır.

**Ərin (arvadın) və ya Həyat yoldaşının adının Müqavilədən çıxarılması:** Herbalife Müstəqil Tərəfdaşın müqaviləsi üzrə sənədlərdən Ərin (arvadın) və ya Həyat yoldaşının adının silinməsi üçün Ərin (arvadın) adının silinməsi üzrə doldurulmuş Forma və ya Həyat yoldaşının adının silinməsi üzrə doldurulmuş Forma almalıdır.

**Ödənişlər:** Herbalife ödənişlərə dair dəyişikliklərin daxil edilməsi üçün ödənişlərin həyata keçirilməsi üzrə doldurulmuş Sorğunu almalıdır. Sonrakı sorğuları hər iki tərəf imzalamalı və onlar notarial qaydada təsdiq olunmalıdır. Müstəqil Tərəfdaşın ilk Müqaviləsi üzrə ödəniş hesabatları (Steytmentlər) Herbalife-ın Müstəqil Tərəfdaş Müqaviləsinin ilk ID nömrəsi altında MyHerbalife.com saytına daxil olarkən əlçatan olacaq.

**Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququnun ötürülməsi:** Herbalife Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququnun Müstəqil Tərəfdaş olmayan birinə, həmçinin keçmiş Həyat yoldaşına ötürülməsi üçün doldurulmuş Boşanma proseduru Forması və ya Həyat yoldaşı ilə faktiki nikah münasibətlərinin pozulmasına barədə Formanı almalıdır.

Bir neçə boşanma və ya ayrılma olduğu halda, boşanmış Ərin (Arvadın)/ ayrılmış Həyat yoldaşının yeni Müstəqil Tərəfdaş Müqaviləsi imzalamaq imkanı olacaq və o İlk Tərəfdaşlıq fəaliyyəti ilə birləşdiriləcək.

**Əgər Müstəqil Tərəfdaş <u>tərəfdaşlıq fəaliyyətinin həyata keçirilməsi üzrə hüququ</u> ötürürsə və fərdi tərəfdaşlıq fəaliyyətinə başlamaq qərarına gəlirsə, o:**

- Fərdi tərəfdaşlıq fəaliyyəti ilkin olandan asılı olmayacaq.
- Satış və Marketinq Planında yeni səviyyələrə keçid, Xidmətlərə görə mükafat və digər növ mükafatlar yeni tərəfdaşlıq fəaliyyəti ərzində nail olunan həcmlərdən asılı olacaq.

**Herbalife Şirkətinin yeni Müstəqil Tərəfdaş Müqaviləsini qəbul etməsi üçün aşağıdakı şərtlərə əməl etmək lazımdır:**

- Müstəqil Tərəfdaş Supervayzer və aşağı statusda Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququ ötürüldükdən sonrakı bir il ərzində və ya World Team və yuxarı statusda Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququ ötürüldükdən sonrakı iki il ərzində öz tələbini təqdim etməlidir.
- İlkin tərəfdaşlıq fəaliyyətinin və fərdi tərəfdaşlıq fəaliyyətinin sponsoru eyni şəxs olmalıdır.
- Yeni tərəfdaşlıq fəaliyyətinin statusu tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququnun ötürülməsi anına ilkin tərəfdaşlıq fəaliyyətinin statusuna bərabər olacaq.

## Başqa Sponsor adı altında tərəfdaşlıq fəaliyyətinin həyata keçirilməsi / Müstəqil Tərəfdaşın başqa biznesində iştirak

Başqa Sponsor adı altında Müstəqil Tərəfdaş Müqaviləsinin bağlanması üçün Müstəqil Tərəfdaş və ya onun Əri (arvadı) və ya Həyat yoldaşı Herbalife-a aşağıdakı sənədləri təqdim etməlidir.*

**Ər (arvad) boşanan zaman**

- Müstəqil Tərəfdaş statusunun alınması üzrə yeni imzalanan Ərizə
- Şahidlərin imzaladığı, təsdiqlədiyi boşanma haqqında ərizə
- Nikahın pozulması haqqında ərizənin surəti, mülki məsələlərin həlli haqqında razılaşmanın surəti və ya əmlakın artıq birgə qazanılmadığının qeyd olunduğu məhkəmənin qətnaməsi

**Həyat yoldaşı ilə ayrılan zaman**

- Müstəqil Tərəfdaş statusunun alınması üzrə yeni imzalanan Ərizə
- Hər iki tərəfdən Həyat yoldaşı ilə faktiki nikah münasibətlərinin ləğvi barədə şahidlərin imzaladığı, təsdiqlədiyi forma. (Əgər Həyat yoldaşı ilə ayrılma barədə şahidlərin imzaladığı və təsdiqlədiyi forma hər iki tərəfdən alınmazsa, iki (2) şahidin təsdiqlədiyi maddi münasibətlərin ləğvi barədə forma.

Bundan başqa, Müstəqil Tərəfdaş və ya Ər (arvad) və ya Həyat yoldaşı Qeyri-fəallıq dövrünü axıra kimi çatdırmalıdır. Qeyri-fəallıq dövrü, hansının erkən başlanmasından asılı olaraq, "Qeyri-fəallıq dövrü" Qaydasına uyğun olaraq və ya məhkəmə sənədinin verilmə tarixinə əsasən müəyyən edilir.

<u>Qeyd:</u> Başqa Sponsor adı altında Müstəqil Tərəfdaş müqaviləsi bağlamaq üçün Müstəqil Tərəfdaş Dəstini almaq lazımdır, Sizə ilkin tərəfdaşlıq fəaliyyəti ilə əlaqəli olmadan məhsullara 25% endirim təqdim olunacaq.

** Forma və Ərizələrin nümunələrini İnformasiya dəstəyi şöbəsinə müraciət edərək əldə etmək olar.*

## Ər (arvadın) boşanması və ya Həyat yoldaşı ilə münasibətlərin ləğv olunması və Herbalife-ın Satış və Marketinq Planı

**<u>Ümumi həcm</u>**: Hər bir fərdi tərəfdaşlıq fəaliyyətinin həcminə fərdi tərəfdaşlıq fəaliyyətinin həcmi üstəgəl ilkin tərəfdaşlıq fəaliyyətinin həcmi daxil olmalıdır. O, xidmətlərə görə Mükafatların alınması hüququnu, ixtisaslaşmaları, təkrar ixtisaslaşmaları və/və ya xidmətlərə görə Əlavə Mükafatın alınması hüququnu müəyyən edəcək.

İlkin tərəfdaşlıq fəaliyyəti üzrə xidmətlərə görə Mükafat faizinin müəyyən edilməsi məqsədilə Herbalife ilkin tərəfdaşlıq fəaliyyətinin Ümumi həcm ballarını və hər bir fərdi tərəfdaşlıq fəaliyyətinin Ümumi həcm ballarını cəmləyəcək.

İlkin tərəfdaşlıq fəaliyyəti üzrə xidmətlərə görə Əlavə Mükafatın ödəniş faizi Müstəqil Tərəfdaşın fərdi müqavilələrindən birinin ən yüksək faizi üzrə müəyyən olunacaq.

**Misal:**

**Həcm balları**

**B və C üçün həcm aşağıdakı üsulla hesablanır:**

**B + A və C + A**

| B | A | C |
|---|---|---|
| **CEYN SMİT**<br>(Fərdi tərəfdaşlıq fəaliyyəti) | **CEYN SMİT**<br>(İlkin tərəfdaşlıq fəaliyyəti) | **BOB SMİT**<br>(Fərdi tərəfdaşlıq fəaliyyəti) |
| **2000 TV**<br>(2000 TV + 500 TV = 2500 TV) | **500 TV**<br>(2000 TV + 500 TV + 1500 TV = 4000 TV) | **1500 TV**<br>(1500 TV + 500 TV = 2000 TV) |
| ↓ | ↓ | ↓ |
| **5% Xidmətlərə görə mükafat** | **5% Xidmətlərə görə mükafat** | **4% Xidmətlərə görə mükafat** |

**Xidmətlərə görə Mükafat balları**

**Xidmətlərə görə Əlavə Mükafat faizinin müəyyən edilməsi üçün xidmətlərə görə Mükafat balları aşağıdakı üsulla cəmlənir:**

**B + A və C + A**

| B | A | C |
|---|---|---|
| **PRESIDENT'S TEAM**<br>CEYN SMİT<br>(Fərdi tərəfdaşlıq fəaliyyəti) | **PRESIDENT'S TEAM**<br>CEYN SMİT<br>(İlkin tərəfdaşlıq fəaliyyəti) | **PRESIDENT'S TEAM**<br>BOB SMİT<br>(Fərdi tərəfdaşlıq fəaliyyəti) |
| **9000 Xidmətlərə görə Əlavə Mükafat**<br>(9000 Xidmətlərə görə Əlavə Mükafat + 1000 Xidmətlərə görə Əlavə Mükafat = 10000 Xidmətlərə görə Əlavə Mükafat) | **1000 Xidmətlərə görə Əlavə Mükafat** | **8000 Xidmətlərə görə Əlavə Mükafat**<br>(8000 Xidmətlərə görə Əlavə Mükafat + 1000 Xidmətlərə görə Əlavə Mükafat = 9000 Xidmətlərə görə Əlavə Mükafat) |
| ↓ | ↓ | ↓ |
| **6% Xidmətlərə görə Əlavə Mükafat** | **6% Xidmətlərə görə Əlavə Mükafat** | **4% Xidmətlərə görə Əlavə Mükafat** |

**Tələblər**: Müstəqil Tərəfdaşın hər fərdi biznesi xidmətlərə görə Mükafatın alınması üçün lazım olan bütün tələblərə cavab verməlidir. Müstəqil Tərəfdaşın hər biznesi öz fərdi tərəfdaşlıq fəaliyyəti üzrə aşağı xətt Təşkilatın Supervayzer statusuna ixtisaslaşması hallarında müvafiq həcmlə əlaqəli olan tələblərə riayət etməlidir. Aşağı xətt Müstəqil Tərəfdaşların ixtisaslaşması üçün lazım olan müvafiq həcmin tələblərinin yerinə yetirilməsi üçün məhsulları Müstəqil Tərəfdaşın ilkin statusuna əsasən əldə etmək imkanı müvəqqəti olaraq təqdim olunacaq.

**Mükafat və xidmətlərin tanınması proqramı:** Müstəqil Tərəfdaşların xidmətlərinin tanınması hər Müstəqil Tərəfdaşın fərdi nailiyyətlərinə uyğun olaraq Satış və Marketinq Planının növbəti səviyyəsinə keçən zaman həyata keçiriləcək. İlkin tərəfdaşlıq fəaliyyəti üzrə mükafatlar təqdim olunmur. Əgər ilkin və fərdi tərəfdaşlıq fəaliyyəti üzrə President's Team komandasının səviyyəsinə nail olunarsa, President's Team komandasının yuxarı nümayəndəsinə President's Team Plyus (bir Brilyant)səviyyəsinin mükafatı verilir, bu isə TAB Team komandasının nümayəndələrinin xidmətlərinin tanınması və mükafatlandırılması proqramı üzrə siyasətə zidd deyil. Əgər Müstəqil Tərəfdaşın fərdi müqavilələrindən biri üzrə President's Team Plyus (bir Brilyant) səviyyəsinə nail olunarsa, buna müvafiq olaraq mükafat yalnız həmin fərdi tərəfdaşlıq fəaliyyəti üzrə veriləcək.

**Tədbirlər:** Tədbirlərdə iştiraka dair qaydalar hər bir tədbir üçün fərdidir və fərqlənə bilər. Xahiş edirik, yaşayış, biletlər, nəqliyyat və digər məsələlərə dair məlumat əldə etmək üçün tədbirlər haqqında məlumat xarakterli mesajları nəzərdən keçirin.

## Varislik*

Müstəqil Tərəfdaş müqaviləsi onun ölümü halında, müvafiq qanunvericiliyə və Herbalife şirkətinin qaydalarına riayət olunması, o cümlədən, yalnız Herbalife şirkəti tərəfindən qəbul edilməsi şərti ilə (əsaslı səbəb olmadan imtina etmək olmaz), Müstəqil Tərəfdaşın varisinə ötürülə bilər. **

Fəaliyyətdə olan Müstəqil Tərəfdaş üçə qədər Tərəfdaş biznesi apara bilər – şəxsi və miras qalan iki başqa biznes . Miras qalmış Tərəfdaşlıq biznesi şəxsə birbaşa ötürülə bilər və ya President's Team statusu olduqda sahibi varis olan Korporasiyaya*** ötürülə bilər****.

Qeyri-fəallıq dövrü ("Qeyri-fəallıq dövrü" Qaydasına uyğun olaraq) miras qalan Tərəfdaşlıq fəaliyyəti üçün tətbiq edilmir.

Varis Herbalife şirkətinin yalnız şəxsi mülahizəsi ilə tələb etdiyi bütün sənədləri təqdim etməlidir.

Vəfat edən Müstəqil Tərəfdaşın biznesinin ləğvi barədə sorğular birbaşa İnformasiya dəstəyi şöbəsinə göndərilməlidir.

** Əmlak və vərəsəlik məsələləri üçün Müstəqil Tərəfdaşlıq fəaliyyətinizin davam etməsinə dəstək məqsədilə Biznesin davam etdirilməsi Proqramı mövcuddur. Ətraflı məlumat üçün Müstəqil Tərəfdaşlara Xidmət Şöbəsinə müraciət edin və ya MyHerbalife.com saytında yerləşdirilmiş "Herbalife Müstəqil Tərəfdaşın Fəaliyyəti – Gələcək üçün Planlar" sənədi ilə tanış olun.*

*** Təşkilatın ötürülməsi barədə Bəyannamənin Forma nümunələrini İnformasiya dəstəyi şöbəsinə müraciət edərək əldə etmək olar.*

**** Əgər bu varisin sakini olduğu ölkənin qanunvericiliyi ilə icazə verilirsə.*

***** Müstəqil Tərəfdaşın miras qalmış biznesi Herbalife şirkətinin Satış və Marketing Planına uyğun olaraq fəaliyyətin aparılması, satış həcminin reallaşdırılması və kompensasiya şərtlərinə yönələn ayrı Təşkilat kimi nəzərdən keçiriləcək. Varisin Ümumi həcminin və Müstəqil Tərəfdaşın miras qalmış biznesinin Ümumi həcminin kombinasiyasını nəzərdə tutan Herbalife-ın Müstəqil Tərəfdaşının biznesinin aparıldığı bütün vaxt ərzində həcmin yerinə yetirilməsi istisnadır. Varis Müstəqil Tərəfdaşın bütün biznesləri çərçivəsində haqların və borcların, habelə İllik xidmət haqqının və Bizworks (əgər tətbiq olunarsa) ödənilməsinə görə məsuliyyət daşıyır.*

## Tərəfdaşlıq fəaliyyətinin ləğv olunması

Müstəqil Tərəfdaş, MyHerbalife.com saytında Onlayn Xidmət Mərkəzi vasitəsilə Müstəqil Tərəfdaş Müqaviləsinin ləğv edilməsi haqqında ərizə verməklə və ya ərizəni Herbalife Şirkətinə göndərməklə, Herbalife-ın Müstəqil Tərəfdaşı kimi fəaliyyətini dayandırmaq hüququna malikdir. Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququ adı çəkilən ərizə Şirkət tərəfindən qəbul və təsdiq edildikdən sonra dayandırılır.

## Məhsulların İstehlakçılara Satılması

Herbalife kontragentləri (Müstəqil Tərəfdaşları) Herbalife məhsullarını müştərilərə Herbalife məhsullarının istifadə olunması ilə bağlı izahat və tövsiyələrlə şəxsən satan birbaşa satış şirkətidir.

## Biznes qeydiyyatı və vergilər

Qayda və tələblər hər ölkəyə görə fərqlənir və adətən aşağıdakı amillərə əsasən dəyişir:

- Biznesin qeydiyyat prosedurları;
- ƏDV (məlumatların açıqlanması, toplanması, qeydə alınması və hesabatı);
- Digər vergilər

Herbalife biznesinin həyata keçirilməsi zamanı - istər oflayn, istərsə də onlayn satışlar zamanı Müstəqil Tərəfdaşlardan biznesin qeydiyyatı, lisenziyalar və bütün vergi öhdəlikləri və hesabat tələblərinə əməl etmək tələb olunur.

Herbalife şirkətinin tələbi üzrə Müstəqil Tərəfdaşlar öz biznes və/və ya vergi qeydiyyatları barədə məlumatları təqdim etməlidirlər. Bundan əlavə, Müstəqil Tərəfdaşlar Herbalife şirkətinə əvvəllər təqdim edilmiş məlumatlarda edilən hər hansı dəyişiklik barədə çox gecikdirmədən məlumat verməlidir və bunun üçün cavabdehlik daşıyır.

## Mükafat Və Xidmətlərə Görə Əlavə Mükafat

Xidmətlərə görə aylıq Mükafat, xidmətlərə görə Əlavə Mükafat və Herbalife-ın təklif etdiyi digər mükafatlara ixtisaslaşma olunmaq üçün Müstəqil Tərəfdaşlar Satış və Marketinq Planında, həmçinin, digər ədəbiyyat və reklam materiallarında sadalanan satışlara və Satış ballarına dair tələbləri yerinə yetirməlidir.

## Sponsor Fəaliyyətinə Dəstək

**Müstəqil Tərəfdaş və onun Sponsoru arasında münasibətlər Herbalife-ın Satış və Marketinq Planının əsasını təşkil edir. Bu Qaydalar hər iki tərəfi, o cümlədən, sponsorluq hüququnu qoruyur. Sponsor olan Müstəqil Tərəfdaşlar Müstəqil Tərəfdaşların aşağı xətt Təşkilatının öyrədilməsi üçün çox güc, vaxt, enerji sərf edir. Sponsorun dəyişməsi Herbalife biznesinə zərər verə bilər və bu cür hal təşviq olunmur. Yalnız nadir hallarda Sponsorun dəyişdirilməsinə icazə verilə bilər və bu həmişə Herbalife-ın şəxsi mülahizəsi ilə olur.**

### Sponsorluğa düzəliş olunması

Sponsorunu dəyişmək istəyən Müstəqil Tərəfdaş "Sponsorun dəyişdirilməsi üzrə sorğunu"* doldurmalı, və qüvvədə olan Sponsorun doldurduğu Sponsorun dəyişdirilməsi üzrə Razılıq forması və güman edilən Sponsordan Razılıq forması ilə birlikdə verməlidir. Bütün sənədlər iki şahid tərəfindən təsdiq edilməlidir.

Sponsorluğa düzəliş barədə sorğular yalnız aşağıdakı bütün şərtlər yerinə yetirildiyi halda nəzərdən keçiriləcək:

- Müqavilədə təqdim olunan məlumatlarda səhv var;
- Sorğu Herbalife - Müqaviləni qəbul etdiyi andan 90 gün ərzində verilib;
- Qüvvədə olan və güman edilən Sponsor eyni təşkilatdadır;
- Sponsorun dəyişdirilməsi üzrə ərizə verən Müstəqil Tərəfdaş Supervayzer statusuna çatmayıb;
- Ərizə verən Müstəqil Tərəfdaş hələ digər Müstəqil Tərəfdaşların sponsoru olmayıb.

* *Sponsorun dəyişdirilməsi üzrə Sorğu formasını və Sponsorun dəyişdirilməsinə dair Razılıq formasını İnformasiya Dəstəyi Şöbəsində almaq mümkündür. Sorğunun Herbalife tərəfindən nəzərdən keçirilməsi üçün bu formaları və bütün lazımi sənədləri İnformasiya dəstəyi şöbəsinə təqdim etmək lazımdır.*

### Sponsorun dəyişdirilməsi barədə sorğu

**Çoxsəviyyəli marketinqin əsas prinsiplərindən olan təşkilatın tamlığını qorumaq üçün sponsorun dəyişdirilməsi təqdir olunmur və Herbalife tərəfindən yalnız ən müstəsna hallarda təsdiq olunacaq.**

Müstəqil Tərəfdaş yalnız yuxarı President's Team təşkilatı çərçivəsində Sponsorun dəyişdirilməsi barədə ərizə verə bilər.

Sponsorun dəyişdirilməsi barədə ərizə vermək istəyən Müstəqil Tərəfdaş istəyini əvvəlcə öz yuxarı xətt Sponsoru ilə müzakirə etməlidir. Əgər müzakirədən sonra Müstəqil Tərəfdaş əvvəlki kimi Sponsoru dəyişdirmək fikrindədirsə, cari Sponsorun və xidmətlərə görə Mükafat və xidmətlərə görə Əlavə Mükafat alan bütün yuxarı xətt Müstəqil Tərəfdaşların, o cümlədən President's Team-ın 7% xidmətlərə görə Əlavə Mükafat alan aktiv nümayəndəsinin iki şahid tərəfindən təsdiq edilmiş Sponsorun dəyişdirilməsinə razılıq Forması ilə birlikdə doldurulmuş, iki şahid tərəfindən təsdiq edilmiş Sponsorun dəyişdirilməsi barədə ərizə Formasını* Herbalife-a təqdim etməlidir. Bundan əlavə, Herbalife potensial Sponsorun iki şahid tərəfindən təsdiq edilmiş razılığını almalıdır.

Cari və potensial Sponsorun yuxarı Sponsoru eynidirsə və hər ikisi Satış və Marketinq Planına uyğun olaraq eyni statusa və mükafat səviyyəsinə malikdirsə, Sponsoru dəyişmək istəyən Müstəqil Tərəfdaş yalnız cari Sponsordan "Sponsorun dəyişdirilməsinə razılıq" Formasını (iki şahid tərəfindən imzalanmış) və potensial Sponsordan "Sponsorun dəyişdirilməsinin qəbul edilməsi"nə dair Formanı iki şahid tərəfindən imzalanmış) təqdim etməlidir.

Herbalife dəyişikliyi təsdiqlədiyi halda, dəyişikliyi tələb edən Müstəqil Tərəfdaş aşağı xətt Müstəqil Tərəfdaşları və İmtiyazlı Müştəriləri saxlaya bilməz.

Sponsorun dəyişdirilməsinə dair ərizə qəbul edilmədiyi təqdirdə, Müstəqil Tərəfdaş müqaviləyə xitam verə və başqa Sponsorun adı altında Herbalife Müstəqil Tərəfdaş status üçün ərizəni təkrar verməzdən əvvəl Qeyri-fəallıq dövrünü gözləyə bilər (baxın. “Qeyri-fəallıq dövrü”).

* *Sponsorun dəyişdirilməsi üzrə Sorğu formasını və Sponsorun dəyişdirilməsinə dair Razılıq formasını İnformasiya Dəstəyi Şöbəsində almaq mümkündür. Sorğunun Herbalife tərəfindən nəzərdən keçirilməsi üçün bu formaları və bütün lazımi sənədləri İnformasiya dəstəyi şöbəsinə təqdim etmək lazımdır.*

## Qaydalara əməl olunmasına nəzarət

**Bu Qaydaları Herbalife biznes imkanlarının və markasının qorunması üçün nəzərdə tutulub. Qaydalara əməl olunmaması tənzimləyici orqanların, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin Herbalife şirkəti, onun məhsulları və Müstəqil Tərəfdaşları haqqında fikirlərinə mənfi təsir göstərə bilər. Qaydalara əməl olunmaması ilə bağlı bir çox halların Müstəqil Tərəfdaşlara biznesin aparılması üçün düzgün və düzgün olmayan metodlarla bağlı təlim və konsultasiyaların keçirilməsi yolu ilə həll olmasına baxmayaraq, Qaydalara əməl olunmamasının daha sərt qərarların verilməsini tələb etdiyi hallar olur.**

Müstəqil Tərəfdaşlara Herbalife-ın və onun Müstəqil Tərəfdaşlarının işgüzar nüfuzunun və nüfuzunun qorunması məqsədilə güman edilən Qayda pozuntuları haqqında dərhal Herbalife-a xəbər vermələri təkidlə tövsiyə olunur. Herbalife ümumi qayda üzrə Müstəqil Tərəfdaşın pozuntu haqqında öyrəndiyi və ya öyrənməli olduğu tarixdən bir (1) il tərzində verilən şikayətləri nəzərdən keçirir, lakin istənilən məsələni istənilən vaxtda nəzərdən keçirmək hüququnu özündə saxlayır. *

** Herbalife-ın Qaydalarına əməl olunmasının təmin edilməsi gəlirin, işgüzar nüfuzun itirilməsinə və ya istənilən dolayı itkilərə görə təzminat ödəmək məsuliyyəti kimi təfsir edilməməlidir.*

### Şikayət vermək proseduru

Müstəqil Tərəfdaşlar Qaydalara ehtimal edilən uyğunsuzluqlar haqqında MyHerbalife.com saytında əlçatan olan onlayn dəstək xidməti vasitəsilə Herbalife Şirkətinə xəbər verməlidir. Məlumat şikayətin təsvirini və ehtimal edilən uyğunsuzluqları təsdiq edən faktiki məlumatları ehtiva etməlidir.*

Müstəqil Tərəfdaşların şikayət yerləşdirməkdə müştəriyə və ya Müstəqil Tərəfdaşa mane olması və cavab tədbirləri görməsi qadağandır.

**Faktiki məlumatlara cəlb edilmiş bütün şəxslərin adları, ünvanları və telefon nömrələri, eləcə də tarixlər, vaxt, yer və sair daxildir.*

### Şikayətin nəzərdən keçirilməsi

Əgər Herbalife şəxsi mülahizəsi ilə ittihamların təsdiq olunması üçün kifayət qədər məlumatın olduğunu müəyyən edirsə, Herbalife-ın nümayəndəsi şikayət olunan Müstəqil Tərəfdaşla onun cavab verməsi üçün əlaqə saxlayacaq.

Bəzi hallarda məsələnin nəzərdən keçirilməsi prosesində Müstəqil Tərəfdaşın fəaliyyətinə məhdudiyyətlərin qoyulması tələb oluna bilər. Bu məhdudiyyətlərə Herbalife-ın tədbirlərinin ziyarət olunmasına qadağa və ya aşağıdakılar daxil ola bilər:

- Alışa güzəştli hüquqların dayandırılması və ya bu hüquqlardan məhrum olunma;
- Xidmətlərə görə mükafatın ödənişinin dayandırılması və ya bundan məhrum olunma;
- TAB Team komandasının nümayəndələrinə Əlavə Mükafatın ödənişinin dayandırılması və ya bundan məhrum olunma;
- Mükafatların verilməsinin dayandırılması və ya bundan məhrum olunma və yaxud üstünlüklərə (məsələn, tətil, nişanlar və s.) məhdudiyyət qoyulması və ya onlardan məhrum olunma;
- Herbalife şirkətinin sponsoru olduğu Tədris seminarlarında və digər tədbirlərdə fəaliyyətin dayandırılması və ya orada çıxış etmək hüququndan məhrum olunma;
- Müstəqil Tərəfdaşın həyata keçirdiyi ixtisaslaşmaların dayandırılması və ya onlardan məhrum olunma;
- Özünü Herbalife-ın Müstəqil Tərəfdaşı adlandırmaq hüququnun dayandırılması və ya ondan məhrum olunma.

### Sanksiyalar

Qayda pozuntuları Herbalife şirkəti üçün hüquqi və ya inzibati fəsadlara səbəb ola və bütün Müstəqil Tərəfdaşların biznesini təhlükə altında qoya bilər. Bu səbəbdən sanksiyalar əhəmiyyətli ola bilər.

Herbalife-ın öz mülahizəsi ilə pozuntunun xarakteri və güman edilən və ya faktiki fəsadlara əsaslanaraq müvafiq sanksiyaları, o cümlədən aşağıdakıları müəyyən etməyə tam hüququ var:

- Müstəqil Tərəfdaşın bütün hüquqlarının və imtiyazlarının qüvvəsinin dayandırılması;
- Pul sanksiyaları;
- Herbalife-ın bütün hüquqi xərclərini qarşılamaq öhdəliyi;
- Herbalife-un sponsoru olduğu çıxışlara və ya tədbirlərdə iştiraka qadağa;
- Mark Hyuzun illik bonusunda iştirak etmək hüququndan məhrum olunma;
- Xidmətlərə görə Əlavə Mükafat proqramında iştirak etmək hüququndan məhrum olunma;
- Aşağı xətt Təşkilatın həmişəlik itirilməsi;
- Həcm və mükafatların təkrar hesablanması; və/və ya
- Müstəqil Tərəfdaş müqaviləsinin ləğvi (**Müstəqil Tərəfdaş müqaviləsinin ləğvi** aşağıda bax).

Əgər Herbalife Şirkəti digər Müstəqil Tərəfdaşların aşkar edilmiş pozuntulara səbəb olduğu, təşviq etdiyi və ya birbaş iştirak etdiyi barədə nəticəyə gələrsə, Herbalife həmçinin bu Müstəqil Tərəfdaşları pozuntuya görə məsuliyyətə cəlb edə bilər.

Herbalife Şirkəti pozuntu törətmiş Müstəqil Tərəfdaşın adını və soyadını, pozuntu faktlarını və hallarını və tətbiq edilən sanksiyaları elan etmək hüququnu özündə saxlayır.

** Satış və marketinq Planının Manipulyasiyası, Qadağan olunmuş satış yerləri, Məhsulun üçüncü şəxslər tərəfindən paylanması üçün satışı və Hərrac-saytlarda və kənar onlayn ticarət meydançalarında satış qadağası barəsində pozuntuların aradan qaldırılması üzrə düzəldici tədbirlərə Həcmlərin və mükafatların təkrar hesablanması da daxildir.*

### Yenidən nəzərdən keçirilmə üzrə sorğular (Müstəqil Tərəfdaş Müqaviləsinin Ləğvi ilə əlaqəli olmayan)

Müstəqil Tərəfdaş qərarın verildiyi andan 15 gün ərzində Herbalife-ın qərarının yenidən nəzərdən keçirilməsi üzrə sorğu verə bilər. Yenidən nəzərdən keçirilmə üzrə sorğu verildikdə, Müstəqil Tərəfdaş onun fikri ilə nəzərdən keçirilməli olan əlavə məlumatı və bu məlumatın araşdırma zamanı verilməməsi səbəbini təqdim edə bilər. Əgər yenidən nəzərdən keçirilmə üzrə sorğu 15 gün ərzində verilməzsə, sorğu rədd edilir, lakin Herbalife 15 gün keçdikdən sonra təqdim olunan sübutları yalnız şəxsi mülahizəsi ilə qəbul etmək hüququnu özündə saxlayır.

### Müstəqil Tərəfdaş müqaviləsinin ləğvi

Müstəqil Tərəfdaş Qaydaları pozduqda, Herbalife öz mülahizəsi ilə Müstəqil Tərəfdaş müqaviləsini ləğv edə bilər.*

Tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququndan məhrum edilmə Herbalife-ın Müstəqil Tərəfdaşa təqdim etdiyi yazılı bildirişdə göstərilən tarixdən qüvvəyə minir. Müqaviləyə xitam verildikdən sonra Müstəqil Tərəfdaşın tərəfdaşlıq fəaliyyəti ilə məşğul olmaq hüququndan məhrum edilmə nəticəsində Herbalife-a qarşı heç bir iradı olmayacaq.

Müstəqil Tərəfdaş** artıq aşağıdakıları edə bilməz:

- Herbalife-ın Müstəqil Tərəfdaşı kimi Herbalife biznesini apara
- Özünü Herbalife-ın Müstəqil Tərəfdaşı kimi təqdim edə
- Herbalife-ın ticarət adını, loqotipini, ticarət markasını və ya əqli mülkiyyətini istifadə edə
- Hətta Müstəqil Tərəfdaşın həyat yoldaşı və ya qonağı kimi Herbalife-ın təlimlərini, görüşlərini, tədbirlərini ziyarət edə, promouşenlərində iştirak edə bilməz.

** Ləğv Müstəqil Tərəfdaş müqaviləsinin tam ləğv olunması və Herbalife-ın bizneslə məşğul olmaq hüququndan məhrum edilməsi deməkdir. Buna Müstəqil Tərəfdaş biznesin istənilən mənfəətin əldə olunması hüququnun, bu mənfəətin Müstəqil Tərəfdaş müqaviləsinin ləğv olunduğu tarixdən əvvəl və ya sonra əldə olunmasından asılı olmayaraq, ləğv olunması daxildir.*

*** Bu qaydanın müddəaları həmçinin müqaviləsinə xitam verilən və ya Qaydalara əməl olunmaması barədə sorğunun nəzərdən keçirilməsi nəticəsində Herbalife biznesini tərk edən Müstəqil Tərəfdaşlara şamil olunur.*

## Apellyasiyanın verilməsi proseduras

Müstəqil Tərəfdaş qərarın verildiyi andan 15 gün ərzində Müstəqil Tərəfdaş müqaviləsinin ləğvi barədə qərarının Apellyasiyasına verə bilər. Apellyasiya keçirilmə üzrə sorğu verildikdə, Müstəqil Tərəfdaş onun fikri ilə nəzərdən keçirilməli olan əlavə məlumatı və bu məlumatın araşdırma zamanı verilməməsi səbəbini təqdim edə bilər. Əgər Apellyasiya üzrə sorğu 15 gün ərzində verilməzsə, sorğu rədd edilir, lakin Herbalife öz mülahizəsi ilə 15 gündən gec təqdim olunan sübutları nəzərdən keçirmək hüququnu özündə saxlayır.

Apellyasiya Satış şöbəsi, İnformasiya dəstəyi şöbəsi və Hüquqi şöbənin səlahiyyətli nümayəndələrindən ibarət komitə ("Təftiş komissiyası") tərəfindən nəzərdən keçiriləcək. Təftiş komissiyası səs çoxluğu ilə Müstəqil Tərəfdaş müqaviləsinin ləğvini, həmin müqavilənin bərpa olunmasını dəstəkləyə və ya güman edilən uyğunsuzluqlara görə alternativ sanksiyalar tövsiyə edə bilər. Müstəqil Tərəfdaş müqaviləsinin ləğvi barədə qərarın nəzərdən keçirilməsi zamanı Təftiş komissiyası güman edilən uyğunsuzluğun əhəmiyyətli olub-olmadığı barədə məsələni nəzərdən keçirir.

Lakin bu qərar Herbalife-ın Müstəqil Tərəfdaşa mənfəətin əldə olunmaması və ya işgüzar nüfuzun itirilməsinə görə kompensasiyanın ödənilməsi üzrə məsuliyyətinin olmasını nəzərdə tutmur.

## Əlavə hüquq normaları

**Aşağıda istifadə olunan "Müqavilə" termini Müstəqil Tərəfdaş statusunun alınması üzrə Ərizə və Müstəqil Tərəfdaş və Herbalife arasında müqavilə münasibətləri deməkdir.**

### Zərərin Qarşılanması

Əgər aşağıda göstərilən qüvvədə olan qanunvericiliyə zidd deyilsə, nə Herbalife, nə Müstəqil Tərəfdaş istənilən dolayı, qərəzsiz, təsadüfi və ya istənilən növ spesifik zərərlərə, o cümlədən, məhdudiyyət olmadan, tələbin müqavilə, delikt və ya istənilən digər qanunvericilik bazası və yaxud ədalət hüququ bazasına əsaslanıb-əsaslanmadığından və hər hansı tərəfin bu cür zərərlərin ola bilməsi barədə məlumatının olub-olmamasından asılı olmayaraq, Müstəqil Tərəfdaşın işgüzar nüfuzunun itirilməsi, biznes imkanlarının, sərfəli sazişlərin, mənfəətin və ya gəlirin itirilməsinə görə digər tərəf qarşısında məsuliyyət daşımırlar.

### Müqavilə üzrə öhdəliklərin icrasından azad olma

Herbalife-ın öz mülahizəsi ilə Qaydaların pozulması və ya istənilən Müstəqil Tərəfdaşla istənilən müqavilənin şərtlərinə əməl olunmaması ilə bağlı tədbir görmək hüququ var. Herbalife-ın istənilən Müstəqil Tərəfdaşla istənilən müqavilə üzrə hər hansı hüquq, öhdəlik və ya imkanı həyata keçirməməsi, onlardan imtina etməsi və ya istifadə etməməsi Herbalife-ın istənilən bu cür müqavilə üzrə istənilən vaxt öz şərtlərə əməl etməkdən və ya öz hüquqlarından imtinası demək deyil.

### Müqavilə müddəalarının müstəqilliyi

Əgər Herbalife və Müstəqil Tərəfdaş arasında istənilən Müqavilədə hər hansı müddəa istənilən münasibətdə etibarsız, qeyri-qanuni və ya icrası məcburi hesab edilirsə, o, Müqavilədən silinməli və hüquqi qüvvəsi dəyişilməz olaraq qalan Müqavilənin qalan hissəsinə heç bir təsir göstərməməlidir. Bundan başqa, Müqaviləyə silinən müddəaya maksimal şəkildə oxşayan və qanuni, etibarlı və məcburi icra oluna biləcək müddəa avtomatik şəkildə əlavə ediləcək.

### Tətbiq olunan hüquq və yurisdiksiya:

Hazırkı Müqavilə və Herbalife ilə Müstəqil Tərəfdaşlar arasındakı münasibətlərdən yaranan istənilən mübahisələr, kollizion hüquq prinsipləri tətbiq edilmədən, Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

İstənilən bu cür mübahisə yalnız Azərbaycan Respublikası, Bakı şəhərində yerləşən, lazımi yurisdiksiyada olan məhkəmədə məhkəmə qaydasında həll edilməlidir.

### Zərərlərin qarşılanması zəmanəti

Müstəqil Tərəfdaş zərəri qarşılayacaq və Herbalife-ı Müstəqil Tərəfdaşın Müqaviləni və ya Herbalife-ın biznesin aparılması qaydalarını pozması ilə əlaqədar istənilən iddia, hərəkət, tələb, məhkəmə təqibindən qoruyacaq, o cümlədən bununla bağlı bütün xərcləri və ya öhdəlikləri və zərərləri qarşılayacaq. Herbalife Müstəqil Tərəfdaşa verməli olduğu məbləğləri hazırkı zəmanətlə bağlı yaranan istənilən öhdəliklərin hesabına hesablaya bilər.

### Müstəqil Tərəfdaşlar arasında iddialar

Herbalife Müstəqil Tərəfdaşın qarşısında istənilən xərc, itki, zərər və ya onun istənilən digər Müstəqil Tərəfdaşların hərəkətləri, hərəkətsizliyi, bəyanatları və ya iddiaları nəticəsində birbaşa və ya dolayı çəkdiyi xərclərə görə məsuliyyət daşımır.

## Fərdi məlumatların və məlumatın məxfiliyinin qorunması

“Herbalife İnterneşnl RS” MMC, Rusiya Federasiyası, 105064, Moskva ş., Zemlyanoy Val küç. Ev 9, 12-ci mərtəbə, 1-ci sahə, 1-ci, 3-7-ci otaqlar (“Herbalife”) fərdi məlumatlarınızın emalına nəzarət edir. Herbalife ilə razılıq əsasında Filuet Azerbaijan, AZ1065, Bakı ş., Cəfər Cabbarlı küç. 44 Müstəqil Tərəfdaşlar haqqında müəyyən fərdi eyniləşdirmə məlumatını (FEM) toplayır və onu Herbalife-a ötürür. Müstəqil Tərəfdaş statusunun alınması üzrə Ərizədə olan FEM-dan əlavə Herbalife və Filuet Müstəqil Tərəfdaşın fəaliyyəti haqqında məlumatları və Herbalife-a Müstəqil Tərəfdaş Müqaviləsi üzrə öz öhdəliklərinin icrası üçün lazım olan Müstəqil Tərəfdaşın bank rekvizitləri və ya bank kartı nömrəsi kimi məlumatı toplayır. Əgər Müstəqil Tərəfdaş bu məlumatı və ya məlumatın istifadə olunması üzrə müvafiq icazəni Herbalife və Filuet-ə təqdim etməkdən imtina edirsə, o Müstəqil Tərəfdaş ola və ya qala bilməz*. Əgər Müstəqil Tərəfdaş Herbalife və Filuet-ə öz məlumatını təqdim edirsə, həmin məlumat aşağıdakı məqsədlərlə istifadə olunacaq:

(1) Müstəqil Tərəfdaşlara xidmətlərin göstərilməsi (sifarişlərin qəbul olunması və rəsmiləşdirilməsi və mükafatların hesablanması və s. kimi);
(2) Müstəqil Tərəfdaşların müştərilərinə göstərdiyi xidmətlər sahəsinə dəstək və onun inkişafı);
(3) Müstəqil Tərəfdaşları əlavə xidmətlər göstərməsi);
(4) Satış və Marketinq Planının lazımi qaydada işləməsinin təmin olunması; və
(5) Herbalife-ın qayda və müddəalarına əməl olunmasına nəzarətin həyata keçirilməsi.

Herbalife öz Müstəqil Tərəfdaşları haqqında məlumatı birləşmiş təşkilatlarına,** Birləşmiş Ştatlarda olan korporativ baş qərargahına, xidmət təchizatçılarına (məsələn, İT-dəstək, mühasibatlıq, hüquqi konsultantları və s.) və yuxarıda duran təşkilatın Müstəqil Tərəfdaşlarına zərurət yarandıqda təqdim edir. Ayrı-ayrı hallarda və qüvvədə olan qanunvericiliyə uyğun olaraq Herbalife həmçinin dövlət hakimiyyəti orqanlarının sorğusu ilə Müstəqil Tərəfdaşlar haqqında məlumat təqdim etməlidir. Bütün bu hallarda Herbalife Müstəqil Tərəfdaşların məlumatının məxfiliyinin təmin olunması üçün lazımi tədbirlər görəcək. Herbalife Sizin məlumatlarınızı digər üçüncü şəxslərlə paylaşmır.

Herbalife-ın bəzi birləşmiş təşkilatları və ola bilsin ki, Sizin yuxarıda duran Təşkilatınızın Müstəqil Tərəfdaşları fərdi məlumatların qorunma səviyyəsinə Sizin yaşadığınız ölkədə olduğundan daha az diqqət yetirilən ölkələrə fəaliyyət apara bilər. Lakin, Herbalife Müstəqil Tərəfdaşların fərdi məlumatlarının harada istifadə olunmasından asılı olmayaraq Sizin fərdi məlumatlarınızın qorunmasının təmin olunmasına sadiq qalır və bununla əlaqəli olaraq Amerika Birləşmiş Ştatlarında Herbalife International of America, Inc. şirkəti ABŞ və EC ((EU-US Safe Harbor Agreement) arasında “Təhlükəsiz liman haqqında” Müqaviləyə riayət edir. Bu Müqavilə Sizin ölkənizə uyğun qorunma səviyyəsini təmin etmək üçün nəzərdə tutulub.

Müstəqil Tərəfdaşların öz şəxsi məlumatlarına giriş imkanı var və onların lazım gələrsə yanlışlıqların düzəldilməsi üçün ona dəyişiklik etmək hüququ var. Əgər Müstəqil Tərəfdaşlar bu hüquqdan istifadə etmək istəyirsə, onlar öz ölkələrində olan İnformasiya dəstəyi şöbəsi ilə əlaqə saxlamalı, MyHerbalife.com ünvanında İnternetdə öz profillərinin məlumatını yoxlamalı və ya privacy@Herbalife.com ünvanına elektron poçtla məktub göndərməlidir.

Müstəqil Tərəfdaş zaman-zaman Herbalife-dan onun aşağı xətt Təşkilatına aid fərdi eyniləşdirmə məlumatını (FEM) ala bilər. Müstəqil Tərəfdaşlar bu məlumatı aşağı xətt Müstəqil Tərəfdaşlarından bu məlumatın digər məqsədlərlə istifadə olunması üçün razılıq almayıbsa, yalnız öz aşağı xətt Təşkilatları çərçivəsində Herbalife bizneslərinin inkişafı məqsədilə istifadə edə bilər. Müstəqil Tərəfdaşlar fərdi məlumatların qorunması barədə bütün tətbiq olunan qanunlara, o cümlədən, fərdi məlumatların transsərhəd ötürülməsi üzrə məhdudiyyətlərə əməl etməlidir. Herbalife Müstəqil Tərəfdaşa fərdi məlumatı təqdim etdikdən sonra o bu məlumata görə məsuliyyət daşıyır və onun məxfiliyini qoruyub saxlamalıdır.

Biznesin inkişafına köməklik göstərilməsi məqsədilə Müstəqil Tərəfdaşlara məhsullar və təqdim olunan xidmətlər üzrə materiallar təqdim edir, bundan başqa Herbalife Müstəqil Tərəfdaşlara Herbalife və onun işgüzar Tərəfdaşları haqqında kommersiya məlumatı göndərə bilər. Müstəqil Tərəfdaşlar biznesin inkişafı və reklam üçün bu növ vasitələrin alınmasından Müstəqil Tərəfdaş statusunun alınması üzrə Ərizədə müvafiq seçimləri qeyd etməklə və ya 8 (495) 729-50-30 telefon nömrəsi (ödənişli nömrə) ilə İnformasiya dəstəyi şöbəsinə zəng etməklə imtina edə bilər.

** Tərəfdaşlıq fəaliyyətinin ləğv olunması halında Herbalife mühasibat uçotu və onun Satış və Marketinq Planına əsasən mükafatların hesablanması məqsədilə Müstəqil Tərəfdaşların məlumatlarını qismən saxlamalıdır.*

*** Herbalife-ın törəmə şirkətlərinin siyahısını İnternetdə www.myherbalife.com/az-AZ və ya Herbalife.az saytlarında tapmaq mümkündür.*

## Təriflər

**Ərizə və Müqavilə**: Müstəqil Tərəfdaş statusunu almaq üçün ərizə və müqavilə və Müstəqil Tərəfdaş ilə Herbalife Şirkəti arasındakı bütün müqavilə münasibətləri, o cümlədən Satış və Marketinq Planı, Müstəqil Tərəfdaşlar üçün Qaydalar və MyHerbalife.com saytında dərc edilən digər sənədlər.

**Birləşdirmə**: Həyat yoldaşı ilə boşanan zaman və ya münasibətlər bitdiyi zaman boşanan cütlük və ya keçmiş Həyat yoldaşlarının ilkin Tərəfdaşlıq fəaliyyəti və fərdi Tərəfdaşlıq arasındakı həcmin faiz gəlirinin hesablanması məqsədilə birləşdirilməsi.

**Biznesin təbliği üçün vasitələr**: Herbalife-ın hazırlamadığı əlavə satış vasitələri.

**Ərizə**: Herbalife® məhsulları və ya Herbalife-ın biznes imkanları haqqında istənilən təsdiq, hekayə, təsvir və video.

**Klub**: Sağlam həyat tərzi Klubu.

**Qeyri-yaşayış sahəsində Klub:** qeyri-yaşayış sahəsində yerləşən Klub.

**Şirkət:** Herbalife Distribution Ltd.

**Müştəri:** İmtiyazlı Müştərilər və ya pərakəndə müştərilər

**Haqq**: Müstəqil Tərəfdaşın illik xidmət haqqı.

**Geniş auditoriya:** əvvəllər Müstəqil Tərəfdaşın şəxsən ünsiyyətdə olmadığı şəxslər.

**Herbalife-ın əqli mülkiyyəti:** Herbalife-ın müəllif hüququ ilə qorunan materialları, mal nişanları, firma adları, digər brendinq formaları və kommersiya sirri daxildir.

**MTD** Müstəqil Tərəfdaş Dəsti. MTD – bizneslə məşğul olmaq üçün Müstəqil Tərəfdaşa verilən başlanğıc dəstdir.

**Herbalife® məhsulları:** Herbalife Şirkətinin satdığı bütün məhsullar və Müstəqil Tərəfdaşların bu məhsullardan istifadə edərək hazırladıqları daxildir.

**Herbalife-ın xərclərinin əvəzini ödəmə siyasəti:** Herbalife bütün müştərilər üçün məhsulun tam dəyərinin əvəzini 30 (otuz) təqvim günü ərzində qaytarmağa zəmanət verir.

**Potensial müştərilər**: Herbalife® məhsullarını əldə edən və ya Herbalife-ın biznes imkanlarından istifadə edən mümkün müştərilər.

**Həyat yoldaşı:** "Həyat yoldaşının əlavə edilməsi haqqında Ərizə blankı"-nın köməyi ilə Herbalife-ın Müstəqil Tərəfdaşı tərəfindən Həyat yoldaşı kimi qeyd edilən şəxs.

**Həyat tərzi haqqında ərizələr:** Gəlirlər haqqında Ərizələrin müxtəlifliyi. Müstəqil Tərəfdaşın müəyyən həyat tərzi sürə biləcəyini və ya Herbalife-ın biznes imkanlarından istifadə edərək müəyyən məhsulları əldə edə biləcəyini ifadə edən və ya nəzərdə tutan istənilən ərizə.

**Müstəqil Tərəfdaşın Təşkilatı haqqında hesabatlar:** bu hesabatlar Müstəqil Tərəfdaşlar və İmtiyazlı Müştərilər haqqında Müstəqil Tərəfdaşın aşağı xətt Təşkilatında olan məlumatları, məsələn, soyadı, adı, əlaqə məlumatlarını, İD nömrəsini və səviyyə və ya status, Həcm və satış statistikası kimi biznes göstəricilərini ehtiva edir.

**Materiallar:** biznesin təşviqi üçün Herbalife-ın çap etdiyi ədəbiyyat və alətlər.

**Müstəqil Tərəfdaş:** Müstəqil Tərəfdaş statusunu almaq üçün Ərizəsi və Müqaviləsi Herbalife şirkətində qəbul edilmiş və qeydiyyata alınmış fiziki şəxs.

**Tərəfdaşlıq**: Herbalife Müstəqil Tərəfdaşının müstəqil biznesi.

**İnformasiya dəstəyi şöbəsi:** Herbalife-ın 8 (495) 729-50-30 telefon nömrəsi (ödənişli nömrə) ilə əlaqə saxlaya biləcəyiniz İnformasiya dəstəyi şöbəsi.

**Sağlam həyat tərzi klubları:** Sağlam həyat tərzi klubları, Herbalife® məhsullarından istifadə edərək, yaxşı qidalanmaya istiqamətlənmək istəyən insanları dəstəkləyən insanların cəmiyyətini təklif edir.

**Sağlam həyat tərzi klubunun təşkilatçısı**: eləcə də Sağlam həyat tərzi klubunda çalışan "Təşkilatçı" – Herbalife-ın Müstəqil Tərəfdaşı".

**Fərdi məlumatlar:** şəxs haqqında məlumatlar, məsələn, ad, soyad, poçt ünvanı, şəhər, ölkə, poçt indeksi, telefon nömrəsi, elektron poçt, bank kartının nömrəsi və bank rekvizitləri.

**İmtiyazlı Müştəri:** İmtiyazlı Müştəri məhsulu bilavasitə Şirkətdə güzəştlə əldə etmək hüququna malikdir. (1) Herbalife-ın Satış və Marketinq Planı üzrə Herbalife-ın məhsul və xidmətlərinin satışı üçün; (2) Herbalife-ın Müstəqil Tərəfdaşları və ya İmtiyazlı Müştəriləri qismində digər şəxslərin cəlb edilməsi və sponsorluq edilməsi üçün; və ya (3) Herbalife-ın Satış və Marketinq Planı üzrə istənilən növdə Mükafat hüququnun əldə edilməsi üçün onun Herbalife-ın Müstəqil Tərəfdaşı olması lazımdır.

**Təftiş komissiyası:** Müstəqil Tərəfdaş müqavilələrinin ləğvi haqqında qərarların yenidən nəzərdən keçirilməsinə dair ərizələri nəzərdən keçirən komissiya. Bu komissiya Satış şöbəsi, İnformasiya dəstəyi şöbəsi və Hüquqi şöbədən ibarətdir.

**Biznesin aparılmasının qaydaları**: Herbalife Şirkətinin Müstəqil Tərəfdaşlar üçün dərc etdiyi qaydalar, siyasətlər və tövsiyələr

**Satış və Marketinq Planı:** Herbalife-ın konkret Satış və Marketinq Planını əks etdirən sənəd.

**Sponsor:** Müstəqil Tərəfdaş və ya İmtiyazlı Müştəri qismində digər fiziki şəxsi Herbalife-a gətirən Müstəqil Tərəfdaş.

**Kənar Saytlar**: Hərrac Saytları və Üçüncü Tərəflərə məxsus Onlayn Ticarət Platformaları.

**Hüquqi varis**: Müstəqil Tərəfdaş müqaviləsi üzrə hüquq və öhdəliklərin ötürüldüyü Müstəqil Tərəfdaş.

**Sedent:** Müstəqil Tərəfdaş müqaviləsi üzrə hüquq və öhdəliklərini digər Müstəqil Tərəfdaşa ötürən keçmiş Müstəqil Tərəfdaş.

# Правила ведения бизнеса

**Данные Правила ведения бизнеса (далее “Правила”) вместе с материалами, содержащимися в них, являются частью Договора на получения статуса Независимого Партнера. Компания Herbalife может периодически вносить изменения в Правила, о чем Независимые Партнеры будут уведомлены по электронной почте.**

## Оглавление


**Начало работы ... 3**
Независимые Партнеры являются Индивидуальными Предпринимателями ... 3
Отсутствие необходимости брать в долг или делать обязательные приобретения ... 3
**Продажа продукции Herbalife ... 3**
Запрещенные места продажи ... 3
Бланки розничного заказа и документы о продаже ... 3
Возмещения клиентам ... 3
Агрессивные продажи ... 3
Продажа продукции для распространения третьими лицами ... 4
Изменение упаковки, этикетки и материалов ... 4
Описание продукции и рекомендации по использованию ... 4
Идентификация ... 4
**Реклама ... 4**
Заявления ... 4
Реклама цен ... 4
Интеллектуальная собственность Herbalife ... 4
Запрет рекламы ... 5
**Основы Плана Продаж и Маркетинга ... 5**
Один Договор Независимого Партнера на одного человека ... 5
Приобретение продукции надлежащим образом ... 5
Ответственность за действия лиц, участвующих в развитии бизнеса ... 5
Период неактивности ... 6
**Спонсорство и лидерство ... 6**
Заявление на получение Дополнительного Вознаграждения за услуги участниками команды TAB Team ... 6
Невмешательство в другой бизнес ... 6
Ассоциация с Herbalife ... 6
Продвижение других бизнес-возможностей ... 6
Продажа инструментов для развития бизнеса ... 6
**Прямые продажи ... 6**
Манипулирование Планом Продаж и Маркетинга ... 7
Клиентский сервис ... 7
Лидерская поддержка и обучение Организации ... 7
Запрет на продажи на сайтах-аукционах и сторонних торговых онлайн-площадках (совместно именуемых «Сторонние сайты») ... 7
Вебсайты и приложения Независимых Партнеров ... 8
Контекстная реклама и оптимизация поисковой системы ... 8
Запрещенные бизнес-практики ... 8
Потенциальные клиенты и люди, приходящие по рекомендации ... 8

## Клубы Здорового образа жизни и офисы ....................................................9
Аренда или покупка помещения для ведения бизнеса....................................................9
Ведение нескольких Клубов....................................................9
Запрет платных консультаций по ведению Клуба ....................................................9
Ответственный Организатор Клуба ....................................................9
Совместное использование помещений Клуба....................................................9
Розничная продажа продукта....................................................9
Приготовление продуктов Herbalife....................................................9
Доставка....................................................10
Запрет продажи Клубов для получения прибыли ....................................................10
Вывеска и название Клуба в нежилом помещении....................................................10
Внешнее оформление Клуба в нежилом помещении....................................................10

## Международный бизнес ....................................................10
Деятельность в странах и на территориях, не открытых для бизнеса....................................................10
Запрет на экспорт продуктов ....................................................11
Ведение бизнеса в Китае ....................................................11
Запреты для стран, регионов и отдельных лиц....................................................11

